RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 76 (8392) ÇƏRŞƏNBƏ, 22 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Vəhdətin zəfəri

**Dünya böyük bir gərginlik içindədir...**
**Çox yox, cəmi bircə il əvvəlin elə bugünkü günlərində kimə desəydin ki, Yer üzü COVID-19 adlı qəribə bir kabusun əlində naçar qalacaq, yəqin hamı gülüb keçərdi.**

İnformasiya texnologiyalarının inkişafı, elmi mərkəzlərin bəşəriyyətə təqdim etdikləri möcüzəvi innovasiyalar bizi o qədər arın-arxayın salmışdı ki, elə bilirdik, daha insanın zəkası qarşısında, elmi-texnoloji yeniliklərin təsir gücü önündə heç nə duruş gətirə bilməz.

Amma budur, yeni bir reallıq ortaya çıxan kimi belə iddialı təsəvvürlərimizin çoxu COVID-19 gerçəyinə dəyib çilik-çilik yerə ələndi.

Məlum oldu ki, dəvası tapılmayan adicə bir xəstəlik bəşəriyyətin tarix boyu qazandığı elmi nailiyyətlərə, təbabətin zərrə-zərrə əldə etdiyi uğurlara meydan oxuyub çox şeyi yenidən öz ibtidasına qaytara bilər.

Biliklərin, texnologiyaların gücü ilə təbiəti özünə ram etmək iddiasına rəğmən, insan övladının həyatda aciz qaldığı məqamlar az qala ömrümüzün anlarının sayı qədər hesabsızdır.

Biz düşünürdük ki, son onilliklərdə görünməmiş sürət götürən və insanları da öz ağuşuna alıb aparan zamanı, dünyanın inkişaf axınını daha hansısa məqamda dayandırmaq mümkün deyil. Amma çox yanılmışıqmış...

COVID-19 dünyanın əyləcini basdı, sanki zaman bir yerdə donub durdu. Dünyanın hər bir yerində insanlar təhlükəli virusdan qorunmaq və başqalarını da qorumaqdan ötrü günün qlobal tələbinə çevrilmiş “Evdə qal!” çağırışına əməl edib evlərində qalmaqla həm də öz vicdanları, mənəvi dünyaları ilə başbaşa qaldılar.

Koronavirus pandemiyasının çox az sayda faydalarından biri də bəlkə elə bəşəriyyəti və onun ayrı-ayrı üzvləri olaraq hər birimizi vicdanımız, mənəviyyatımız, keçmişimiz, bu günümüz, gələcək haqqında təsəvvürlərimizlə rubəru əyləşdirib özümüzün və dünyamızın taleyi haqqında ətraflı düşüncə fürsəti verməsidir, kim bilir...

Alber Kamyunun 1947-ci ildə çapdan çıxmış “Taun” əsərini oxuyanda hələ xeyli gəncdim. Sonradan tənqidçilərin rəyləri ilə tanış olub biləcəkdim ki, Kamyu bu romanda sətiraltı mənalarla taun epidemiyası adı altında əslində bir zamanlar qara bəla kimi Avropada yayılmış faşizmi anladırmış. Amma ilk dəfəsində, yeniyetmə yaşında, nə gizlədim, bu romanı elə sırf taun haqqında yazılmış təsirli bir əsər kimi oxuyurdum.

Romanı diqqətlə mütaliə etmiş oxucuların yadında olar, epidemiya vaxtilə Fransanın müstəmləkəsi olmuş Əlcəzairin şəhərlərindən birində - Oranda başlanır. Bu hekayətin izi ilə dahi Kamyu öz oxucularını adi vaxtlarda, əhvalımızın şad-xürrəm vədələrində çoxumuzun bəlkə heç fərqində belə olmadığımız yalın həqiqətlər mənzərəsindən keçirir.

Oxucu insanların ölümün bir addımlığında olduqları zaman düşdükləri psixoloji vəziyyətlə üz-üzə qalır. Onların özləri ilə, öz vicdanları ilə daxili hesablaşmasını eşidib-duyur. Həyatın adi axarı ilə davam etdiyi zamanlarda o qədər də etina etmədiyimiz xırdalıqların əslində bizim üçün nə qədər böyük önəm kəsb etdiyini göstərir.

Təsəvvür edək ki, dünənə kimi əlimizi uzatsaq, çata biləcəyimiz doğmalardan gözlənilmədən ayrı düşmüşük. Bizə ən doğma olan adamları günlərdir ki, görüb bağrımıza basa bilmirik. Nə qədər can atsaq da, onlara yetişə bilməməyin yaratdığı ayrılıq qorxusundan adamı vahimə basır.

Hələ bir vaxtlar adamlarla dolub-daşan küçələrin, meydanların indi daş kimi səssizliyi, qaynarlığını, qələbəliyini itirmiş gündəlik həyatın qərib tənhalığı...

Kamyu insanların bəzi şeyləri yalnız başlarının üstünü bəla aldığı zaman, fəlakətə düçar olduqda dərk etdiklərini həyatımızın ən acı etiraflarından biri kimi üzümüzə çırpır.

Amma keşkə bu bəzi olanları tək belə sınaqlar vaxtında yox, həyatmızın bütün məqamlarında nəzərə alsaq, onları diqqətdən kənarda qoymasaq, sonradan peşmanlığını yaşayacağımız yanlışlara yol verməsək...

❖ ❖ ❖

“Taun” romanı bəşəriyyətin üzləşdiyi bəlalardan sovuşmağın yeganə yolunu da göstərir: yaxşı insanların öz güclərini birləşdirməsi. Bu birləşən güc ən böyük bəlalardan da daha üstündür. İnsanın hansı məzhəbə qulluq etməsi, hansı əqidənin sahibi olması fərq etmir, əsas odur ki, o, qəlbini yaxşılıqlara açsın, yaxşı insanların qalib gəlməsindən ötrü özü də əməlləri ilə onlardan biri olsun.

Kamyunun “Taun”undakı bütün yaxşı insanlar Oran şəhərində tüğyan edən, hər gün yüzlərlə can alan bu bəlaya qarşı birlikdə mübarizə aparır və sonda qalib gəlirlər. Nə qədər də tanış mənzərədir, deyilmi?!

Biz də dünyamızdakı bütün yaxşılıqları birləşdirsək və bu birliyi indən sonra həmişəlik qorusaq...

İnanın ki, bu xəyal etdiyimizdən də daha asan başa gələ bilər...

❖ ❖ ❖

Bu gün Yer üzündə bəşəriyyətin COVID-19 pandemiyasına qarşı maraqlı bir vəhdətini görürük. Maraqlı olansa budur ki, sərhədlər açıq olanda qəlblər bir-birinə bağlı idi, amma indi sərhədlər qapalı, qəlblər açıqdır...

Ümumi bəla, qorxulu aqibət, bütün insanları mənən bir-birinə yaxın edib. Hər kəs dünyamızın bu mərəzdən tezliklə qurtulmasına çalışır. Ən azı öz gündəlik həyat tərzini müəyyən edilmiş normalara uyğunlaşdırması ilə xəstəliyə qarşı mübarizə tədbirlərinə bir adam sayı qədər kömək göstərmək istəyir.

Dünyada silah səsləri də səngiyib elə bil...

Lənətə gəlmiş işğalçı qonşularımızın cəbhə xəttində ara-sıra yol verdikləri təxribat əməllərindən, atəşkəs rejimini pozma cəhdlərindən savayı, neçə gündür müharibələrlə bağlı elə bir xəbər rastıma çıxmır. Çünki özünə hörmət edən hansısa ölkə dünyanın bu qarışıq vaxtında insanlıq üçün əlavə problem yaratmaq istəmir. Dünyanın sözü-söhbəti koronavirus pandemiyasıdır, xəstəliyin artım və azalma dinamikasıdır, ona qarşı görülən tədbirlərdir.

Bu gün dünyada müşahidə olunan mənzərə əslində belə bir reallığın təsdiqidir ki, bəşəriyyət istəsə, zəruri saysa, başqa zamanlarda da bir araya gələ bilər, başqa bəlalara qarşı da gücünü birləşdirməyi bacarar, bu bəlaları da həyatından birlikdə qoparıb ata bilər.

Yetər ki dünyamızda bunu istəyənlərin sayı həmişə indiki kimi çox olsun...

*Ardı 4-cü səh.*

# “Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz”

Azərbaycanda koronavirusla mübarizə istiqamətində həyata keçirilən fəaliyyət proqramı yalnız vətəndaşların sağlamlığını əhatə etmədi. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən kompleks qabaqlayıcı tədbirlər həm də sosial-iqtisadi sferada çətinliklərin yaranmasının qarşısını almağa hesablandı. Bu mənada ölkə ictimaiyyəti hər bir məsələdə məhz dövlət başçısının dəstəyini, diqqət və qayğısını gördü. Artıq günlərdir ki, vətəndaşlar Prezident İlham Əliyevə məktub ünvanlayaraq dövlət başçısına minnətdarlıqlarını ifadə edirlər.

Qarabağ müharibəsi veteranı, hazırda müəllim kimi çalışan Biləsuvar rayonunun sakini **Emin Mehtiyev** yazır ki, hər dəfə şagirdlərə dövlətimizin inkişafından, Ulu Öndərdən, İlham Əliyevin Azərbaycan üçün etdiklərindən bəhs edəndə qürur hissi keçirir: “Siz daim xalqı düşünürsünüz. Bu ağır günlərdə isə qayğınız daha da artıb. Bu günləri Sizin rəhbərliyinizlə alnıaçıq başa vuracağıq və mən şagirdlərimə Sizin bu mübarizədə xalqımızı necə qorumağınız haqqında söhbətlər edəcəyəm”.

Bakının Nəsimi rayonunda yaşayan təqaüdçü **Qunça Qafarova** ölkəmizdə COVID-19 pandemiyasının qarşısını almaq üçün görülən çoxsaylı tədbirlərə görə Prezident İlham Əliyevə minnətdarlığını çatdıraraq bildirir: “Mənim 69 yaşım var, təqaüdçüyəm. Bu ağır günlərdə Azərbaycan xalqının hər bir ailəsini öz ailəniz kimi gördünüz. Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın mənfi təsirləri minimuma endirilib. Buna görə Sizə təşəkkürümü bildirirəm. Allahdan sizə uzun ömür və cansağlığı arzu edirəm”.

Masallının Hüseynhacılı kəndindən yazan **Şəhriyar Cəfərli** gəncləri təmsil edir. Onun məktubunda deyilir: “Hörmətli cənab Prezident! Sizə bu məktubu yazmaqda məqsədim Azərbaycanın bir gənc vətəndaşı olaraq, Sizə minnətdarlıq etməkdir. Dünyanın bu çətin vəziyyətində bizə öz qayğınızı əsirgəmirsiniz. Bu çətin günlərdə bir çox ölkələrin öz vətəndaşlarına göstərmədiyi qayğını Siz Azərbaycan vətəndaşlarına göstərirsiniz. Bunun üçün atam həmişə bizə “Azərbaycanlı olduğunuz üçün özünüzlə fəxr edin” deyir. Bu sevgi və qayğını bizə Siz bəxş etmisiniz. Siz heç zaman heç bir vətəndaşı yaddan çıxarmırsınız, biz tələbələrə də öz qayğınızı göstərirsiniz”.

**Yeganə Fərəcova** Füzuli rayonundan olan məcburi köçkündür. O yazır: “Cəbhə bölgəsində yaşayan vətəndaşlar olaraq inanırıq ki, Sizin və Mehriban xanım Əliyevanın güclü iradəsi və qətiyyətli siyasəti nəticəsində biz mövcud pandemiyaya tez bir zamanda qalib gələcəyik. Sizin atdığınız addımlar artıq öz səmərəsini verməkdədir. Bir neçə gündür pandemiya ilə bağlı açıqlanan statistika nikbinliyə əsas yaradır.

*Ardı 2-ci səh.*




# Azərbaycan yoluxma zəncirini qırır

## Prezident İlham Əliyevin koronavirusla mübarizədə həyata keçirdiyi uğurlu model effektiv nəticəsini verir

**Dünyanı çənginə almış koronavirus pandemiyasının ölkələrə vurduğu zərər hələ hesablanmasa da, görünən odur ki, qarşıdakı illərdə əksər dövlətlər ciddi iqtisadi böhran yaşayacaq. Pandemiya makroiqtisadi siyasətdən qlobal ticarətədək bütün sahələrə öz mənfi təsirini göstərəcək.**

Ancaq bəzi ölkələr getdikcə daha da qorxulu mənzərə alan pandemiyaya qarşı qabaqlayıcı tədbirlər görərək prosesdən az itkilərlə çıxmağa çalışırlar. Beynəlxalq iqtisadçı ekspertlər də hesab edirlər ki, məhz postpandemiya dövründə bu ölkələrin iqtisadiyyatı uğurlu inkişafını təmin edə biləcək.

*Ardı 5-ci səh.*

# Əhalinin təhlükəsizliyi uğurla təmin olunur

**Dünyanı bürüyən koronavirus pandemiyası hələ də miqyasını genişləndirməkdədir. Elə bu səbəbdən virusdan həm ölənlərin, həm də yoluxanların sayı artmaqda davam edir. Hazırda pandemiya dünyada genişmiqyaslı böhran yaradıb və hətta inkişaf etmiş ölkələr belə bunun yaratdığı problemlər qarşısında aciz duruma düşüb. Belə bir dönəmdə Azərbaycanda virus əleyhinə görülən işlər, atılan addımlar sayəsində pandemiyanın ölkəmizə təsirinin minimal həddə olması təqdirəlayiq haldır.**

Nazirlər Kabineti tərəfindən karantin müddətinin mayın 4-dək uzadılması da virusa qarşı mübarizədə mühüm addımlardan biri sayılır. Bütün bunlara paralel olaraq Prezident İlham Əliyevin rəhbərliyi altında görülən işlər, xüsusən də əhaliyə genişmiqyaslı dəstək pandemiyanın Azərbaycana təsirinin daha da azaldılmasında mühüm əhəmiyyət kəsb edir.

Görünən budur ki, koronavirusun neqativ təsirlərinin neytrallaşdırılması istiqamətində atılan addımlar qarşıdakı dövr ərzində Azərbaycanın pandemiyadan daha az zərər çəkən ölkələr sırasında yer almasını şərtləndirməkdə davam edəcək. Bütün bunlar məhz dövlətin müvafiq addımları sayəsində mümkün olub və təsadüfi deyildir ki, Azərbaycan bu baxımdan dünya miqyasında koronavirusa qarşı mübarizədə model yaradan ölkələrdən biri qismində qəbul edilir. Sosial təcridin reallaşması da xüsusi diqqət mərkəzindədir və bu hal koronavirusun yayılmasının qarşısını almaqda müstəsna əhəmiyyət kəsb edir.

Aprelin 14-də birinci rübün yekunlarını müzakirə edərkən Prezident İlham Əliyev sosial izolyasiya tədbirləri ilə bağlı aidiyyəti qurumlara ciddi tapşırıqlar verdi. Aprelin 17-də Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda bir daha qeyd etdi ki, Azərbaycanda vəziyyət nəzarət altındadır, hökumət qabaqlayıcı tədbirlərini vəziyyətə uyğun şəkildə görməlidir: “Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir.

*Ardı 3-cü səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

Əvvəli 1-ci səh.

# «Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz»



Kim bilir, bəlkə də bir çoxları üçün qarşısıalınmaz olan bu düşmənə qarşı qələbəmiz bizim növbəti zəfərlərimizin başlanğıcı olacaqdır. Sizin sayənizdə yağı düşmənə də qalib gələcəyimizə və işğal altında olan torpaqlarımızı azad edəcəyimizə ümid edirik".

Şəki şəhər sakini **Mənsurə Cəbrayılova** müəllim və mədəniyyət işçisidir. "Biz Sizin xalqımız üçün necə böyük işlər gördüyünüzün şahidiyik. Dünyanı pis günə qoyan bu virusla mübarizədə və bütün işlərinizdə Sizə dualar edir və alqışlayırıq. Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarıq. Dövlətimizin qabaqlayıcı tədbirləri və düşünülmüş siyasəti nəticəsində bu gözə görünməyən virus inşallah ölkəmizi tərk edəcəkdir. Mən və ailəm uca Allaha dualar edirik ki, Allah Sizə, həkimlərimizə, ordumuza, bu mübarizədə əməyi olan hər bir şəxsə dayaq olsun. Amin", - deyə onun məktubunda bildirilir.

**Vüsət Xəlilov** da Füzuli rayonunun sakinidir. O məktubunda bu günlərdə sadə vətəndaşların yanında olduğuna, karantin müddətində işsiz və aztəminatlı ailələrə aylıq 190 manat pul vəsaitinin ödənilməsinə görə dövlət başçısına cəbhə bölgəsində yaşayan bütün Füzuli rayon sakinlərinin minnətdarlığını çatdıraraq yazır: "Bir daha əmin olduq ki, Sizi özümüzə lider seçməkdə yanılmamışıq. Siz Ümummilli Liderimiz kimi mürəkkəb vəziyyətlərdə böyük iradə nümayiş etdirməklə xalqı irəli aparmağa qadir rəhbərsiniz".

Sumqayıtdan yazan **Ləman Ramazanova** koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasına imkan vermədiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq edir. "Vaxtında görülən tədbirlər sayəsində biz bu gün evimizdə sağlam şəkildə ailəmizin yanındayıq. Bu mübarizədə bir çox adamlar qəhrəmanlıq göstərir, bu qəhrəmanlıqlar bizi qələbəyə yaxınlaşdırır. Bu qələbədə nə qədər çox adamın payı olsa da, bayraqdarımız, qələbənin memarı Sizsiniz, cənab Prezident!", - deyə onun məktubunda bildirilir.

"Sizin müdrik siyasətinizin nəticəsi olaraq Azərbaycan cənnət diyara çevrilmişdir. Qlobal pandemiyanın yayıldığı bir zamanda məhz Sizin rəhbərliyinizlə koronavirus ilə mübarizədə dövlət vaxtında qabaqlayıcı tədbirlər gördü. Bunun nəticəsidir ki, Azərbaycanda xəstələrin sayı da çox az oldu. Bu gün Siz bir daha sübut etdiniz ki, Azərbaycan xalqına xidmət edirsiniz". Bunu isə Bakı sakini **Zəminə Cəfərova** yazır. Onun bildirdiyinə görə, ölkəmizdə COVID-19 infeksiyasına qarşı görülmüş bütün qabaqlayıcı tədbirlər insanlarımızın sağlamlığının qarantı, Prezidentin işsiz vətəndaşlara və sahibkarlara göstərdiyi maddi və mənəvi dəstək isə əsl rəhbər, dövlət başçısı qayğısının təzahürüdür.

Şəki rayonunun Qudula kəndindən **Nemət Əliyev** Prezident İlham Əliyevə xitab edərək yazır ki, bütün dünyanı bürüyən koronavirus xəstəliyinə qarşı mübarizədə respublikamızda Sizin rəhbərliyinizlə böyük işlər görülür: "Biz hər gün televiziyada Sizin çıxışlarınızı diqqətlə dinləyirik. Sizin imzaladığınız qərarları hər gün eşidirik. Koronavirus xəstəliyi vaxtı kənd təsərrüfatı məhsulları istehsalçılarının xərclərini qarşılamaq məqsədilə ehtiyat fondunuzdan ayırdığınız vəsaitlərə, sadə kəndlilərin zəhmətinə verdiyiniz dəyərə görə Sizə öz minnətdarlığımızı bildiririk. Sizə yorulmaz fəaliyyətinizdə yeni uğurlar arzu edir, yanınızda olduğumuzu bilməyinizi istəyirik".

Balakən rayonunun Qullar kənd sakini **İbrahim Şıxməmmədov** COVID-19 pandemiyasının ölkəmizdə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər gördüyünə görə Prezidentə təşəkkür edərək yazır: "İnanırıq ki, dünya tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcəkdir. Gördüyünüz bütün işlərə görə çox sağ olun, cənab Prezident! Bütün ailəmiz adından Sizə minnətdarıq. Yaxşı ki, varsınız. Nə yaxşı ki, bu ölkənin Prezidenti Sizsiniz. Allah Sizi və ailənizi qorusun".

Fərdi sahibkar **Heydər Səmədov** Neftçalanın Mürsəqulu kəndinin sakinidir. "Ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyasının genişlənməsinin qarşısının alınması məqsədilə təsdiq etdiyiniz müvafiq preventiv və profilaktik tədbirlər, əhalinin aztəminatlı təbəqəsinin sosial dayanıqlılığının təmin edilməsi, o cümlədən pandemiyadan əziyyət çəkən sahibkarlara maliyyə dəstəyi verilməsi, insanları sosial həmrəyliyə dəvət etməyiniz dövlət-vətəndaş birliyini əks etdirən əsas faktorlardandır. Fərdi sahibkar, fermer olaraq Sizin apardığınız məqsədyönlü daxili və xarici siyasəti tam dəstəkləyir və Sizin ölkəmizin çətin dönəmində dayanmadan, yorulmadan apardığınız islahatları alqışlayıram. Siz Azərbaycanın inkişafını təmin edirsiniz. Sizin pandemiya şəraitində Azərbaycanı necə qurtardığınız bir tarixdir", - deyə o yazır.

Ölkəmizin koronavirus ilə bağlı aparılan mübarizədə zamanında verilmiş qərarlar sayəsində ən inkişaf etmiş dövlətlərlə bir pillədə durduğunu bildirən Şamaxı rayonunun Sabir qəsəbəsinin sakini **Şəfa Hacıyeva** yazır: "Bu, dövlət rəhbərinin uzaqgörənliyinin nəticəsidir. Bizimlə bərabər ailəmizin, övladlarımızın rifahını düşündüyünüz üçün, bu çətin günlərdə virusun vurduğu ziyanları minimuma endirə bildiyiniz üçün Sizə ailəm və yaxınlarım adından dərin minnətdarlığımı bildirirəm. Sizin kimi rəhbəri olan dövlətin vətəndaşı olduğum üçün qürur duyuram. Hər zaman dövlətimizin rifahı naminə verdiyiniz qərarlarınızda yanınızdayıq".

**Elşən Əsədov** Tərtər rayonunun Sarıcalı kəndindən yazır. Onun sözlərinə görə, aztəminatlı ailələrin sosial durumlarının yaxşılaşdırılması, işsiz və işaxtaran şəxslərə birdəfəlik ödəmələrin verilməsinin 200 min nəfərdən 600 min nəfərə çatdırılması xalqımız üçün çox önəmli addımlardır. "Vaxtında verdiyiniz göstərişlərə uyğun olaraq, dövlət sərhədlərinin bağlanılması xalqımız üçün çox önəmli addımdır. Biz həmişə Sizə güvənmişik və bu gündən sonra da güvənimizi sonsuz şəkildə davam etdirəcəyik. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz, ölkə başçımız, Ali Baş Komandanımız var. Cənab Ali Baş Komandan, mən Sizə ailəmiz adından minnətdarlığımı bildirirəm", - deyə məktubda daha sonra qeyd olunur.

"Siz həmişə olduğu kimi, bu çətin dövrdə də xalqın yanındasınız, ona daim qayğı göstərirsiniz. Sizin düşüncə və əməlləriniz insanların həyatının qorunmasına, onların sağlamlığının müdafiəsinə, maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilib. Sizin koronavirusla mübarizə istiqamətində qəbul etdiyiniz tədbirlər qəlbinizin mərhəmətindən, sevginizin dərinliyindən, təfəkkürünüzün gücündən və müdrikliyindən xəbər verir". Bunu isə İsmayıllı rayonunun İvanovka kəndindən **Tatyana Ravçeyeva** yazır. O, ailəsi və öz adından ölkə rəhbərinə minnətdarlıq edərək, bu bəlanın öhdəsindən birlikdə gələcəyimizə əmin olduğunu bildirir.

"Belə çətin günlərdə xalqımızın yanında olub, onun hər bir problemi ilə maraqlanıb həlli istiqamətində tapşırıqlar verdiyinizə görə mən bir Qarabağ qazisi kimi Sizi alqışlayıram". Bu sətirlərin müəllifi Masallı rayon Türkoba kəndinin sakini **Füzuli Abdullayevdir**. Onun sözlərinə görə, koronavirusa qarşı mübarizədə vətəndaşlarımızın sağlamlığını hər şeydən vacib bilib məqsədəuyğun qərarlar verilməsi hər kəsi çox sevindirir.

Ucar rayonunun Boyat kəndindən **Şamil Əliyev** yazır ki, dünyanı çənginə almış koronavirus pandemiyası ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələr belə çətin vəziyyətə düşdüyü halda, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanımızda səmərəli qabaqlayıcı tədbirlər görülmüşdür. "Siz Azərbaycan vətəndaşlarının, eləcə də şəhid ailələrinin sağlamlığının qorunması istiqamətində qətiyyətli addımlar atır, mühüm qərarlar qəbul edirsiniz. İnanırıq ki, Sizin müdrikliyiniz sayəsində xalqımız tezliklə bu bəladan xilas olacaqdır", - deyə o yazır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Prezidenti tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğı göstərilir

## 200 min əvəzinə 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verəcək

**Dünyanı bürüyən koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Prezidentinin həyata keçirdiyi qabaqlayıcı tədbirlərin, insanların sağlamlığının qorunması və bəladan az itki ilə çıxmaq məqsədilə imzaladığı fərman və sərəncamların icrası müsbət nəticələr verməkdədir. Görülən işlər ölkə ictimaiyyəti, xüsusilə ziyalılar tərəfindən yüksək dəyərləndirilir. Dövlət başçısının təşəbbüsü ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, ilk olaraq özünün, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birillik əməkhaqlarını ora köçürmələri, virusun geniş yayılmaması üçün xalqa müraciətləri, bu çətin günlərdə hamını bir olmağa, özünütəcrid qaydalarına əməl etməyə çağırmaları vətəndaşlarımızda sağlam gələcəyə böyük əminlik yaradıb. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət İlham Əliyevin Azərbaycan xalqının qarantı və hər bir vətəndaşın Prezidenti olmasının bariz nümunəsidir.**

Cari il aprelin 17-də Azərbaycan Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda demişdir: "Biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaq. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artmışdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir".

Azərbaycan Prezidentinin aztəminatlı ailələrin müdafiəsi mövqeyindən gündəmə gətirdiyi bu fikirlər ictimaiyyət nümayəndələri, xüsusilə özünü bu kateqoriyadan sayan insanlar arasında böyük rəğbətlə qarşılanmışdır. Ölkə rəhbərinin tövsiyəsinə əsasən aztəminatlı ailələrin problemlərinə həmişə olduğu kimi, bu çətin günlərdə də daha geniş şəkildə diqqət göstərilir. Əvvəla, hökumət tərəfindən nəzərdə tutulmuş karantin rejiminin müddəti uzadılmışdır. Digər tərəfdən, yardım üçün müraciət edən aztəminatlıların sayı müəyyən qədər artmışdır. Odur ki, ölkə başçısının tapşırığına əsasən indi aidiyyəti dövlət qurumlarında bu təkliflər, bu müraciətlər geniş təhlil olunur və veriləcək yardımın insanlara çatdırılmasında şəffaflığın təmin olunmasına şərait yaradılır. Dövlətdən yardım alan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır.

Azərbaycan Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasdakı çıxışında xüsusi olaraq vurğulamışdır: "Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir".

Pandemiyanın geniş yayılmasının qarşısını almaq haqqında Azərbaycan Prezidentinin verdiyi tapşırıqlar məsuliyyətlə yerinə yetirilir. Bütün vətəndaşlara, xüsusilə yaşlılara, köməyə ehtiyacı olanlara diqqət və qayğı göstərilir. Hətta yerlərdə Azərbaycan Prezidentinin aztəminatlı ailələrə dəstək təşəbbüsünə qoşulan idarə, müəssisə və təşkilatlar, imkanlı fərdi insanlar bu işdə əllərindən gələni əsirgəmirlər. Xatırladaq ki, Azərbaycan Prezidentinin tapşırığına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən sosial layihəyə qoşulan "BRAVO" marketlər şəbəkəsi yaşı 65-dən yuxarı olan tənha yaşlılara ərzaq məhsulları ilə yardım etmişdir. Belə ki, ölkə ərazisində ehtiyacı olan ahıl şəxslərə şirkət tərəfindən bitki yağı, un, düyü, makaron, mal ətindən konservlər, kolbasa və sosislər, çay, kartof, soğan və s. bu kimi qida məhsullarından ibarət 10 mindən artıq ərzaq paketi çatdırılmışdır.

Şəmkir rayonu İrmaşlı kənd icra nümayəndəliyi, İrmaşlı bələdiyyəsi və kənd sakinləri tərəfindən redaksiyamıza daxil olan teleqramda isə bildirilir ki, ölkə başçısı cənab İlham Əliyevin "Biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk" fikrinə ürəkdən dəstək olan şəmkirlilər, o cümlədən əslən İrmaşlıdan olan, hazırda Rusiya Federasiyasında yaşayan iki sahibkar tərəfindən kənddə 130 ailəyə hər biri 3 kiloqram olmaqla, ümumilikdə 400 kiloqram dana əti paylanmışdır.

Azərbaycan Prezidentinin aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi və əhvali-ruhiyyəsinin yüksəldilməsi istiqamətində atdığı addımlar nəinki respublikamızda, eləcə də xarici ölkələrdə ictimai rəydə yüksək qiymətləndirilir. Bunu sıravi ölkə vətəndaşlarından tutmuş beynəlxalq təşkilatların, tanınmış dövlət və ictimai xadimlərin Azərbaycan Prezidentinə ünvanladıqları təşəkkür məktublarından da görmək mümkündür.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 193696 nəfər olan 10 şəhər və rayonun 13 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 17 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,19 milyon (bir milyon bir yüz doxsan min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2020-ci il*

## N.R.Bağırova töhmət elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Rza oğlu Bağırova Azərbaycan Respublikasının ərazisində koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejimi qaydalarını pozduğuna görə töhmət elan edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 21 aprel tarixli Sərəncamına Əlavə

## Qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun, şəhərin adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağdaş | 2 | Ağzıbir | 1981 |
| | Şəkili | 1201 | | |
| 2. | Biləsuvar | 2 | Dərvişli kəndi | 1766 |
| 3. | Gəncə | 2 | Kəpəz rayonu | 178500 |
| 4. | Xocavənd | 2 | Muğanlı kəndi | 1485 |
| 5. | Yardımlı | 1 | Köryədi kəndi | 1813 |
| 6. | Şuşa (Ağdam rayonu ərazisi) | 2 | Mirzələr qış yatağı | 698 |
| 7. | Laçın (Ağcabədi rayonu ərazisi) | 2 | "Qayğı" qəsəbəsi | 453 |
| | | | "Mişni" obası | 208 |
| 8. | Qobustan | 2 | Təklə kəndi | 2166 |
| | | | Təklə Mirzəbaba kəndi | 2498 |
| 9. | Lerik | 1 | Kələxan kəndi | 483 |
| 10. | Naftalan | 1 | Qasımbəyli kəndi | 444 |
| | Cəmi | 17 | 13 | 193 696 |

## Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin onlayn iclası keçirilib

Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Tahir Mirkişili iclası açaraq gündəlik barədə məlumat verib. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuşda) ilə bağlı qeyd edilib ki, təklif olunan dəyişiklik, Azərbaycan Respublikasına və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan bir sıra konsul əməliyyatları üçün dövlət rüsumunun dərəcələrinin sosialyönümlülük prinsiplərinə uyğun azaldılması məqsədilə hazırlanıb. Komitə üzvləri - Əli Məsimli, Aydın Hüseynov, Məşhur Məmmədov, Vüqar Bayramov, Anar Məmmədov, Rüfət Quliyev məsələ barədə fikirlərini bölüşüblər.

Daha sonra komitə üzvləri "Dövlət rüsumu haqqında", "Dövlət satınalmaları haqqında" qanunlarda, Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında qanun layihələri barədə, "Nağdsız hesablaşmalar haqqında" Qanunda, Mənzil, İnzibati Xətalar məcəllələrində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini müzakirə edərək Milli Məclisin plenar iclasında ikinci oxunuşda baxılmaq üçün tövsiyə ediblər.

## Heç bir siyasi partiyaya mənsub olmayan deputatların onlayn iclası keçirilib

Aprelin 21-də Milli Məclisin Sədri Sahibə Qafarovanın iştirakı ilə heç bir siyasi partiyaya mənsub olmayan deputatların onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, parlamentin Spikeri deputatlara tövsiyələrini verib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Milli Məclis Sədrinin müavini Adil Əliyev çıxış edərək deyib ki, VI çağırış Milli Məclisdə heç bir siyasi partiyaya mənsub olmayan deputatlar say etibarilə Yeni Azərbaycan Partiyasının üzvlərindən sonra ikinci böyük qrupdur. O, parlament rəhbərliyində partiya mənsubiyyəti olmayan deputatların təmsilçisi kimi həmkarları ilə fikir mübadiləsi aparmağa xüsusi önəm verdiyini söyləyib. Prezident İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasındakı nitqində irəli sürülən tövsiyələrə uyğun olaraq partiya mənsubiyyəti olmayan deputatların da ölkəmizdə islahatların hüquqi bazasının genişlənməsi, Azərbaycan qanunvericiliyinin daha da təkmilləşməsi istiqamətində görüləcək işlərdə fəallıq göstərəcəyi vurğulanıb. Tədbirdə deputatlar günün aktual məsələlərindən söhbət açıblar, qanunvericiliklə bağlı təkliflərini diqqətə çatdırıblar.

İlk onlayn iclasda ətraflı müzakirə olunan mövzulardan biri də ölkəmizdə koronavirus epidemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirlərlə bağlı olub. Bu məsələ ilə əlaqədar bildirilib ki, hazırda bütün bəşəriyyət, o cümlədən Azərbaycan koronavirusla mübarizəni davam etdirir. Ölkəmizdə virusa yoluxanların sayı getdikcə azalır, müalicə olunaraq sağalanların sayı isə günbəgün artır.

Qeyd edilib ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət, son iki ayda həyata keçirilən dövlət tədbirləri, atılan qətiyyətli addımlar Azərbaycanı bir sıra ölkələrin üzləşdiyi çətinliklərdən sığortalayıb. Ciddi tədbirlər görülməsəydi, vəziyyət nəzarətdən çıxa bilərdi. Dövlət başçısının da vurğuladığı kimi, Azərbaycan bu sınaqdan da üzüağ çıxacaq.

## Milli Məclisin komitə iclasında ombudsmanın illik hesabatı dinlənilib

Aprelin 21-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Komitənin sədri Zahid Oruc gündəliyə iki məsələnin daxil edildiyini bildirib.

Qeyd olunub ki, birinci məsələ Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2019-cu il üzrə məruzəsinin dinlənilməsidir.

Komitə sədri diqqətə çatdırıb ki, ölkəmizin Avropa Şurasına üzvlüyündən sonra formalaşdırdığı müvəkkil institutu vətəndaşların hüquqları pozulduğu təqdirdə qanuna uyğun olaraq bir sıra səlahiyyətlərə malikdir. Bunlar - cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək, qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək, insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxmış etmək, dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etməkdir. Göründüyü kimi, bütün bu səlahiyyətlər imkan verir ki, müvəkkil illik məruzədə insan hüquqlarını pozan, müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adlarını çəksin və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat versin.

Zahid Oruc onu da diqqətə çatdırdı ki, dövlət başçısı İlham Əliyevin apardığı islahatlar nəticəsində 2019-cu il ölkəmizin həyatına mühüm dəyişikliklər ili kimi daxil olub.

Komitə sədri bildirib ki, müvəkkilin məruzəsi ötən ildə dövlət tərəfindən müxtəlif sahələrdə - vətəndaşların azadlıq, şərəf və ləyaqətinin təminatı, informasiya əldə etmək, vicdan azadlığı və digər fundamental hüquqlar sahəsində görülən mühüm işləri özündə əks etdirir, eləcə də bir sıra istiqamətlərdə həllini gözləyən müxtəlif problemləri üzə çıxarır.

Sonra iclasda Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2019-cu il üzrə məruzəsini təqdim edib.

Bildirib ki, illik məruzədə Ombudsmanın insan hüquqlarının qorunmasının bütün sahələrində fəaliyyəti öz əksini tapıb. Dövr ərzində 25500 müraciət daxil olub ki, bu da ötən illə müqayisədə 25 faiz çoxdur. Bu da həm müvəkkilə inamın artması, həm də müvəkkilə müraciət etmək imkanlarının geniş olması ilə əlaqədardır. Belə ki, Ombudsman Aparatının ölkənin bütün regionlarını əhatə edən 4 regional mərkəzi var. Vətəndaşlar poçt, "qaynar xətt", onlayn şəkildə, sosial şəbəkələr və digər vasitələrlə müvəkkilə müraciət etmək imkanlarına malikdirlər. May ayından etibarən isə ombudsmanın çağrı mərkəzlərini birləşdirən vahid çağrı mərkəzi fəaliyyətə başlayacaqdır. Ombudsman Səbinə Əliyevanın tapşırığı ilə yeni "Facebook" səhifəsi və "Twitter" hesabı da açılıb və vətəndaşlar tərəfindən fəal şəkildə istifadə olunur.

Aydın Səfixanlı qeyd etdi ki, ötən dövrdə Azərbaycan ombudsmanı torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə bağlı insan hüquqlarının pozulması məsələlərini dəfələrlə beynəlxalq təşkilatların diqqətinə çatdırıb, 20 Yanvar faciəsi, Azərbaycanlıların Soyqırımı Günü, Xocalı faciəsi ilə bağlı bəyanatlar verib.

Ombudsmanın işgəncələrə qarşı milli preventiv mexanizm kimi fəaliyyəti ilə əlaqədar olaraq ötən dövrdə azadlıqdan məhrumetmə yerlərinə, istintaq təcridxanalarına 268 başçəkmə həyata keçirilib, konfidensiallıq gözlənilməklə 1445 şəxs təkbətək dinlənilib, onların müraciətləri xüsusi diqqətə alınaraq bununla bağlı müvafiq dövlət orqanlarına sorğular göndərilib. Ötən müddətdə seçki hüququnun təmini məsələsinə də xüsusi diqqət yetirilib, ötən ilin dekabr ayında keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Ombudsman Aparatının əməkdaşları seçkiləri yaxından müşahidə edibmiş, seçki prosesi ilə bağlı edilən müraciətlərə dərhal reaksiya verilib.

Ötən dövrdə məhkəmə qərarlarının icrası ilə əlaqədar məsələlər də diqqətdə saxlanılıb, müvafiq tədbirlər görülüb.

Müvəkkilin ölkəmizdə sosial təminat sisteminin gücləndirilməsi ilə bağlı təklifləri də ölkə rəhbərliyinin qəbul etdiyi normativ-hüquqi aktlarda nəzərə alınıb. Qadın hüquqlarının təmin edilməsi xüsusi diqqətdə saxlanıb, belə müraciətlərə operativ reaksiya verilib.

Aydın Səfixanlı diqqətə çatdırıb ki, məruzə dövründə uşaq hüquqlarının qorunması, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinin təmin olunması da əsas istiqamətlərdən olub.

Məruzə dinlənildikdən sonra komitə üzvləri Hikmət Məmmədov, Tahir Kərimli, Fazil Mustafa, Tural Gəncəliyev, Razi Nurullayev, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Elşad Mirbəşiroğlu, vətəndaş cəmiyyətinin nümayəndələri Mehriban Zeynalova və Əliməmməd Nuriyev çıxış edərək məruzə barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər.

Müzakirələrin sonunda məruzə səsə qoyularaq Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

İclasda "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Bununla da Milli Məclisin İnsan hüquqları komitəsinin iclası başa çatıb.

## Milli Məclisin Mədəniyyət komitəsinin iclası olub

Aprelin 21-də Milli Məclisin Mədəniyyət komitəsinin növbəti onlayn iclası keçirilib. Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda dörd məsələyə baxılıb.

Əvvəlcə Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deputatlara ikinci oxunuşda müzakirəyə təqdim olunmuş qanun layihələri barədə məlumat verib. Bildirib ki, "Milli Məclisin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadə qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsindən (ikinci oxunuş) məqsəd "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" qanunun icrası ilə əlaqədardır. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlara təklif edilən dəyişikliklər (ikinci oxunuş) 2019-cu ildə qəbul olunmuş "Reklam haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır.

Komitə sədri nəzərə çatdırıb ki, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsi zərurəti (ikinci oxunuş) Azərbaycanın dövlət dilinin tətbiqinə nəzarətin və dil normalarının qorunmasının təmin edilməsi vacibliyindən irəli gəlir. Layihəyə əsasən, adı çəkilən 5 qanunun 8 maddəsinə bir formulada dəyişiklik təklif olunur. Məqsəd Azərbaycan dilinin hüquqi statusunun qorunması, bu dilin işlənməsi və inkişafı üçün zəruri tədbirlərin görülməsidir. Həmçinin televiziya və radioda, KİV-də, internet resurslarında, reklam daşıyıcılarında ədəbi dilin normalarının və leksik-qrammatik qaydalarının pozulması hallarının, əcnəbi söz və ifadələrin işlədilməsinin qarşısını almaqdır.

İclasda bildirilib ki, gündəlikdəki sonuncu məsələ - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (ikinci oxunuş) də "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Prezident fərmanının icrası ilə əlaqədardır.

Onlayn iclasda fikir mübadiləsində komitə üzvləri Cavanşir Feyziyev, Fazil Mustafa, Aqil Abbas, Ülviyyə Ağayeva, Novruzəli Aslanov, Nizami Cəfərov, Əziz Ələkbərli, Ülviyyə Həmzəyeva, Sabir Rüstəmxanlı, Mixail Zabelin iştirak ediblər.

İclasın sonunda baxılan bütün məsələlər Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

## Milli Məclisin Mətbuat xidmətinin məlumatı

Bəzi kütləvi informasiya vasitələrində Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektoru müdiri vəzifəsinə Eldar İsmayıl oğlu Əsgərovun təyin edilməsi barədə məlumat yayılıb.

Milli Məclisin Mətbuat xidmətindən verilən məlumata görə, bu xəbər həqiqətə uyğun deyil. Belə ki, Eldar Əsgərov 2017-ci il fevralın 13-dən Parlament Aparatının adıçəkilən şöbəsinin Hərbi qanunvericilik sektorunun müdiri vəzifəsində çalışır.

"KİV nümayəndələrindən bu cür informasiyaları yayarkən bir daha diqqətli olmağa çağırırıq", - deyə məlumatda qeyd edilir.

***AZƏRTAC***

## Fransa portalı Azərbaycan Milli Məclisinin qadın Sədrindən yazır




2020-ci il martın 10-da Sahibə Qafarova Azərbaycan parlamentinin yeni Sədri seçilərək dünyada 58-ci qadın spiker oldu. Bu hadisə ölkənin demokratiya yolunda irəliyə doğru növbəti addımı idi. Beynəlxalq müşahidəçilər Azərbaycanda parlament seçkilərinin demokratiyanın ümumi tələbləri çərçivəsində keçirildiyini bildirdilər. Bu proses ölkənin böyük Qərb dövlətləri ilə əlaqələrinin əhəmiyyətli dərəcədə inkişafına imkan yaradır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Billetdefrance" portalında dərc edilmiş "Azərbaycan parlamentinin qadın spikeri: Sahibə Qafarova" adlı məqalədə yazılıb.

Azərbaycanda keçirilmiş parlament seçkiləri haqqında ətraflı məlumat verilən məqalədə qeyd edilib ki, Prezident İlham Əliyev son illər ərzində ölkəni Qafqaz regionunda sabit iqtisadiyyatlı və böyük ambisiyalı gücə çevirib. Böyük karbohidrogen ehtiyatlarına əsaslanan Azərbaycan hökuməti ölkənin şaxələndirilmiş iqtisadi inkişafından istifadə edərək uğurlu sosial siyasət həyata keçirir.

Məqalədə bildirilir ki, seçkilərin nəticəsi mübahisə doğurmadı. Yeni Azərbaycan Partiyası 125 yerdən 72 yeri qazanaraq böyük üstünlük əldə etdi. Seçkilərin nəticələri hökumətin yürütdüyü siyasətə xalqın böyük dəstəyi kimi qiymətləndirildi.

Qeyd edilir ki, Sahibə Qafarovanın Milli Məclisə yeni qadın spiker seçilməsi cəmiyyətdə intellektual və siyasi dairələrdə qadınlara verilən əhəmiyyəti əks etdirir. Bu, Qafqaz və Orta Asiya ölkələri üçün avanqard nümunədir.

Məqalədə S.Qafarovanın tərcümeyi-halına toxunularaq, karyerasına universitetdən başladığı yazılır. 2004-cü ildə elmlər doktoru elmi dərəcəsi almış S.Qafarovanın Bakı Slavyan Universitetində və ABŞ-ın Pinceton Universitetində (Miçiqan) müəllim kimi fəaliyyət göstərdiyi bildirilir. Onun 2004-cü ildə Yeni Azərbaycan Partiyasının üzvü olduğu və həmin vaxtdan siyasət meydanına qədəm qoyduğu diqqətə çatdırılır. 2010-cu ildə Yeni Azərbaycan Partiyasından Milli Məclisə üzv seçilmiş S.Qafarovanın bu illər ərzində təhsil sahəsində əldə etdiyi uğurları, beynəlxalq siyasi arenada da, xüsusilə AŞ PA-da Azərbaycan nümayəndə heyətinin üzvü kimi davam etdirdiyi vurğulanır. Onun AŞ PA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlərin işi üzrə komitəsinin sədri, qurumun qadınlara qarşı zorakılıqla mübarizə üzrə baş məruzəçi və "Zorakılıqdan azad qadın" parlament şəbəkəsi üzrə siyasi əlaqələndirici olduğu bildirilir. Qeyd edilir ki, o öz ölkəsində olduğu kimi, beynəlxalq səviyyədə də qadınlar və kişilər arasında bərabərliyi təbliğ edən təşkilatlarda fəal rol oynayıb. S.Qafarova AŞ PA-nın bərabərlik və qeyri-diskriminasiya üzrə komitəsinin məruzəçisi kimi qurumun "Qadınlara münasibətdə zorakılığa qarşı mübarizənin ən yaxşı təcrübələrinin tətbiqinə" dair 2084 saylı qətnaməsini hazırlayıb. Qadın hüquqlarının hər bir ölkənin demokratikləşməsinin əsas əlaməti olduğunu əminliklə qeyd edən S.Qafarova ötən il Parisdə Fransa Milli Assambleyasında təşkil edilmiş simpoziumda deyib: "Həqiqətən əminəm ki, qadın hüquqlarının inkişafı ölkədə demokratiyanın səviyyəsinin ən yaxşı göstəricisidir. Keçmiş sovet ölkələrində bu mövzu ciddi məsələdir".

Vurğulanır ki, bu baxımdan, Azərbaycan bəzi Qərbi Avropa ölkələri ilə müqayisədə öndədir. Azərbaycan hələ 1919-cu ildə, Fransadan təxminən 30 il əvvəl qadınlara səsvermə hüququ verib və bu baxımdan ilk müsəlman ölkəsidir. Həmin il bir qadın parlament üzvü seçilmişdi və 100 il sonra ölkənin siyasi səhnəsində qadınlar mühüm vəzifələr tutur. Bu gün qadınlar ölkənin beynəlxalq münasibətlərində mühüm rol oynayır. Azərbaycan regionda yerini bərkitməklə kifayətlənmir, planet səviyyəsində milli və beynəlxalq aktora çevrilmək istəyir. Milli Məclisə yenicə Sədr seçilmiş S.Qafarova bunu təsdiq edərək deyir: "Bizim ölkə sabitdir və xarici siyasətində beynəlxalq hüquq normalarını ciddi şəkildə tətbiq edir. Bu, Azərbaycana beynəlxalq aləmdə etibarlı tərəfdaş olmaq imkanı qazandırır". Buna misal olaraq, 2019-cu ildə Azərbaycan beynəlxalq və ya ikitərəfli görüşlər çərçivəsində 40-dan çox ölkə və hökumət başçısını qəbul edib. Bu rəqəm Avropa və Asiyanın kəsişməsində yerləşən bu Qafqaz ölkəsinin beynəlxalq səviyyədə artan nüfuzuna dəlalət edir.

Məqalədə uzun illərdən bəri Azərbaycan siyasətini izləyən deputat Jan-Lük Reitzerin müşahidəçi kimi seçkilərlə bağlı müsbət fikirləri də yer alıb.

## Milli Məclisin Mətbuat xidmətinin məlumatı

Koronavirus pandemiyası ilə əlaqədar Milli Məclisin plenar iclaslarında sanitariya normalarına riayət etmək üçün deputatları iki metr məsafə ilə hər sırada bir nəfər əyləşdirmək məcburiyyəti yaranıb. Milli Məclisin plenar iclas zalında bu qayda ilə 96 deputat yerləşə bilər.

Milli Məclisin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, deputatların hamısını əyləşdirmək məqsədilə nisbətən cavan deputatlar qabaqcadan məlumatlandırılıb ki, onlar zalda qonaqlar üçün nəzərdə tutulmuş yuxarı yerlərdə yerləşdiriləcəklər. Həmin yerlərdə deputatlara çıxışa yazılmaq və çıxış etmək üçün şərait yaradılıb. Səsvermə isə əlqaldırma yolu ilə həyata keçirilir. Bu tədbir müvəqqəti çıxış yolu kimi deputatlar tərəfindən qiymətləndirilib. Lakin bu günlərdə bəzi kütləvi informasiya vasitələrində bu tədbirlə bağlı narazılığın yaranması haqqında məlumatlar yayılıb. Bu məlumat əsasən deputat Ramil Həsənin sosial şəbəkədə paylaşdığı fikirlərlə əlaqələndirilir. Qeyd etmək lazımdır ki, deputat Ramil Həsənə Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev tərəfindən bu tədbirin məcburi müvəqqəti xarakter daşıdığı izah edilib. Deputat Ramil Həsən buna anlayışla yanaşıb və o, bunun hər hansı deputata qarşı aşağılayıcı münasibət olmadığını başa düşüb. Deputat Ramil Həsən Milli Məclisin Sədri tərəfindən tənbeh edilməyib və ona heç bir xəbərdarlıq olunmayıb. Bəzi KİV-in bu məsələ ətrafında sensasiya yaratması həmin KİV-ə heç də başucalığı gətirmir. Bir daha kütləvi informasiya vasitələrinə sensasiya dalınca qaçmamağı və faktları olduğu kimi çatdırmağı tövsiyə edirik.

# Əhalinin təhlükəsizliyi uğurla təmin olunur

*Əvvəli 1-ci səh.*

Eyni zamanda təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır".

Bu gün Azərbaycanda pandemiyaya qarşı mübarizədə görülən işlər bir çox dövlətlər üçün nümunədir. Prezident İlham Əliyenin qabaqlayıcı tədbirləri həqiqətən də effektiv nəticələrini verməkdədir. Hazırda 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilib. O cümlədən Prezidentin açılışını etdiyi 575 çarpayılıq "Yeni klinika" bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır.

Eyni zamanda Azərbaycan Tibb Universitetinin vaxtilə dövlət başçısının təşəbbüsü ilə tikilmiş Tədris-Terapevtik və Cərrahiyyə klinikasında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş mərkəzi rayon xəstəxanalarında da bir çox xəstələr müalicədədirlər. Bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılan 3 yeni xəstəxanada xəstələrin müalicəsi üçün 500 çarpayı mövcuddur. Yəni mindən çox çarpayı ancaq mart ayında istifadəyə verilib. Prezidentin daha bir göstərişinə əsasən hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Bu xəstəxanalar da işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2 min əlavə çarpayı istifadəyə veriləcək. Həmçinin bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması üçün 18 laboratoriya var. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın gücünü artırır.

Qeyd edək ki, mövcud büdcə qanunvericiliyi çərçivəsində ilkin olaraq bir sıra xərclərin ixtisarı və təyinatının dəyişdirilməsi, həmçinin Prezidentin Ehtiyat Fondu və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən koronavirusla mübarizə, iqtisadiyyata mənfi təsirlərin azaldılması tədbirlərinin maliyyələşdirilməsi üçün hələlik 2.5 milyard manat məbləğində vəsait yönləndirilib. Ancaq karantin rejiminin uzadılması əlavə xərclər yaradıb və buna görə də Prezident İlham Əliyev dövlət dəstəyi proqramlarının maliyyə həcminin 3 və ya 3,5 milyard dollara qədər artırılacağını bəyan edib.

Xatırladaq ki, proseslərin ölkə iqtisadiyyatına ciddi mənfi təsirinin olmaması üçün Azərbaycan Prezidenti tərəfindən 4 istiqamət üzrə işçi qruplar yaradılıb. İşçi qruplarının başlıca məqsədi mənfi fəsadların maksimum dərəcədə yumşaldılması və iqtisadiyyatın dayanıqlılığının təmin olunmasından ibarətdir. Addımın bir istiqaməti sosial bloka aiddir. Bu, bir tərəfdən də ölkə əhalisinin geniş təbəqəsinin sosial rifahının yüksəldilməsinə və ən azından zəifləmələrin olmamasına yönələn siyasətdir.

Qeyd edilənlər bir daha təsdiq edir ki, Prezidentin genişmiqyaslı iqtisadi və sosial dəstək paketi bir çox sahələrə tətbiq ediləcək. Paket pandemiyadan sonra iqtisadiyyatda yaranan boşluqları aradan qaldırmaq və minimum zərərlə çıxmağı da hədəfləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Vəhdətin zəfəri

*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

COVID-19 böhranı başqa həqiqətləri də gün işığına çıxarır.

Son illər dünyada sanki bir dəyərsizləşdirmə təbliğatı gedirdi. Belə bir düşüncə aşılanırdı ki, gələcəkdə insanların dəyərlərə ehtiyacı qalmayacaq. Yaxud ehtiyac qalacaqsa da belə, bu daha dədə-babalarımızın yaratdıqları ənənəvi dəyərlər olmayacaq. Guya gələcək özü öz dəyərlərini formalaşdıracaq. Eyni zamanda dünyada dövlətsizləşdirmə düşüncəsinə doğru ardıcıl bir meyillə də qarşı-qarşıya idik. O qədər də uzaq olmayan gələcəkdə qloballaşma proseslərinin guya bütün sərhədləri ortadan götürəcəyi, klassik mənada dövlətçilik institutlarının öz əhəmiyyətini itirəcəyi ilə bağlı illüziya formalaşdırılırdı.

COVID-19 böhranı isə bu yalançı təbliğatı sabun köpüyü kimi partlatdı. Mənəvi və dövlətçilik dəyərlərinin həyatımızda əslində necə böyük əhəmiyyət daşıdığını göstərdi. Güclü bir dövlətə sahibliyin keçmiş qədər bu gün və gələcəkdə də xalq üçün necə mühüm önəm kəsb etdiyini ən azı Azərbaycan nümunəsində gördük. Və o dövlətin daim güclənməsinə çalışmağın hər birimiz üçün bir ömürlük borc olduğunu bir daha dərk etdik.

Məhz güclü dövlət və güclü lider amili bu bəlanın ölkəmizdə başqa ölkələrlə müqayisədə o qədər də geniş yayılmasına imkan vermədi. Şükür ki, bu sətirlərin qələmə alındığı günlərdə vəziyyət daha da yaxşılığa doğru dəyişməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti, vaxtında verdiyi qərarlar sayəsində bütün dövlət institutları, ümumən cəmiyyətimiz bu qlobal bəlaya qarşı səfərbərliyə alındı, lazımi karantin tədbirləri həyata keçirildi və bu tədbirlər yenə də davam etdirilməkdədir.

Azərbaycan başqa ölkələrin koronavirus pandemiyasına qarşı yol verdiyi heç bir səhvi təkrarlamadı. Əksinə, bu səhvlərdən faydalı təcrübə formalaşdırdı. Bu da görülən tədbirlərin düzgünlüyünə, məqsədyönlülüyünə və müsbət nəticələrinə təminat yaratdı. Başqa ölkələrdə yaranmış dəhşətli mənzərə onu söyləyirdi ki, bu bəladan mümkün qədər itkisiz çıxmağın ən düzgün yolu güclü və güzəştsiz karantin tədbirləridir. İnsanları bir-birindən uzaq tutmaqla epidemiyanın öz hüdudlarını genişləndirməsinə imkan verməməkdir. Yoxsa hər yoluxan bir nəfər onlarca insanın eyni mərəzə mübtəla olması, xəstəxanaların dolub-daşması və facia saylarının artması demək olar.

Azərbaycan koronavirusla mübarizə sahəsində bu günə qədər atılmış bütün addımları düzgün istiqamətə yönəltməyə və nəticədə vəziyyəti tez bir zamanda nəzarət altında saxlamağa nail olması ilə bir çox ölkələr üçün də nümunəyə çevrildi. Təsadüfi deyil ki, bu gün bir çox ölkələr koronavirusa qarşı mübarizə tədbirlərində məhz Azərbaycan təcrübəsindən faydalanır.

❖ ❖ ❖

Bəşəriyyət qorxulu bir röyadadır sanki...

Bəlkə kimlərsə durumun nə dərəcədə ciddiliyini hələ də lazımi qədər anlaya bilməyib. Amma fərqində olmaq lazımdır ki, söhbət hansısa sıradan bir xəstəlikdən getmir. Bu o qədər miqyaslı bir pandemiyadır ki, heç bir döşünə döyən dövlət ondan özünü sığortalaya bilməyib. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikası qarşısında duruş gətirmək gücündə deyil.

Koronavirus bəlası inkişaf səviyyələrinə görə dünyanın ən öncül ölkələrindən sayılan, uzun illər ərzində mükəmməl səhiyyə infrastrukturu formalaşdırmış, güclü təbabətə, ən yüksək peşəkarlıq səviyyəsinə malik həkimləri olan ölkələrdə hər gün minlərlə can alır. İraq olsun, Azərbaycanda da geniş yayılsaydı, virus bizdə hansı faciələrə gətirib çıxara bilərdi, adam bu barədə düşünmək belə istəmir.

Amma dövlətimizin gördüyü qabaqlayıcı tədbirlər ölkəmizdə nəticələrin aradan qaldırılması ilə yanaşı, səbəblərin qarşısının alınmasına doğru atılan addımlar bizi genişmiqyaslı faciələrdən də sovuşdurdu. Arzu edək ki, prosesin davamında da bu belə olsun.

Bu günlərdə xəstəxanalarda böyük gərginlik içində gecə-gündüz çalışan, günlərdir evə gedib doğmalarının üzünü görə bilməyən həkimlərimiz, tibb işçilərimiz qədər karantin rejimini yüksək ciddiyyətlə qoruyan polis əməkdaşlarımız, əsgər və zabitlərimiz, karantin rejimində cəmiyyətin cari tələbatlarını, ehtiyaclarını təmin edən digər peşə sahiblərimiz də böyük hünər göstərirlər. Bu, əsl qəhrəmanlıqdır.

Hər birinə nə qədər minnətdarlıq etsək, yenə azdır.

Allah bu fədakar insanlarımızı qorusun!..

❖ ❖ ❖

Bəllidir ki, koronavirus pandemiyasının gətirdiyi bəlalar təkcə insanların həyat və sağlamlığı ilə məhdudlaşmır. Bu virusun ən böyük zərbələrindən biri də qlobal iqtisadiyyata dəyib. Dünya iqtisadiyyatı demək olar ki, iflic vəziyyətinə düşüb və yaranmış durumdan tezliklə çıxış yolu əfsus ki, hələ görünmür.

Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə tədbirlərinin özünəməxsusluğu isə həm də ondadır ki, bu tədbirlər fərd olaraq hər bir vətəndaşımızın həyat və sağlamlığı ilə yanaşı, sosial rifahını, ölkənin sosial-iqtisadi həyatının ən müxtəlif seqmentlərini də əhatə edir.

Dövlətimiz, Prezidentimiz insanların həyat və sağlamlığı qayğısına qaldığı kimi, iqtisadiyyatın da ayaqda qala bilməsindən, vətəndaşlarımızın güzəranının təmin olunmasından ötrü addımlar atır və bu sahədə də nümunə yaradır.

Cənab İlham Əliyevin sərəncamı ilə ölkə iqtisadiyyatının müxtəlif seqmentlərinə dövlət dəstəyi üçün 3,5 milyard manata yaxın proqramlar hazırlanıb. Bu, iqtisadiyyatın həcmi ilə müqayisədə MDB məkanında və regionda dövlətin yaranmış yeni şəraitlə bağlı ölkə iqtisadiyyatına ən böyük dəstək paketidir.

Proqramlar qısa müddətdə hazırlansa da, ən incə detal belə diqqətdən kənarda qalmayıb. Dövlət ədalət prinsipini qoruyub. Fəaliyyət sahələri təsnifləşdirilib, yəni ən çox zərər çəkmiş sahələr, mənfi təsirə əhəmiyyətli dərəcədə məruz qalmış sahələr, minimal təsirə məruz qalmış və ya təsirə məruz qalmamış sahələr müəyyən edilib. Bunların hər birinə dövlət dəstəyi pandemiyanın təsirinə adekvat olacaq. Bu da məsələyə yüksək peşəkarlıqla yanaşmanın, hər bir nüansın nəzərə alınmasının göstəricisidir.

❖ ❖ ❖

Bir qədər də rəqəmlər danışsın: hazırlanmış proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaq. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaq. Banklar tərəfindən sahibkarlara yeni ayrılan 500 milyon manat həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcək. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaq. Dövlət zəmanəti olmayan 1 milyard manat həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaq. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir.

Bu proqramlar COVID-19-un ölkə iqtisadiyyatına zərərlərini minimallaşdıracaq, iqtisadiyyatımız qısa zamanda vəziyyətdən çıxıb yenidən normal inkişaf axarına davam edəcək.

Ona qədər isə məşğulluğa və sosial rifaha dəstək məqsədi ilə də fəal siyasət həyata keçirilir. Cənab İlham Əliyevin 19 mart 2020-ci il tarixli sərəncamına uyğun olaraq reallaşdırılan Tədbirlər Planı, aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan olunan və 2,5 milyon vətəndaşı əhatə edən yeni dəstək tədbirləri, insanlarımızın məşğulluğu və sosial rifahı üçün müvafiq həcmdə vəsaitin ayrılması bunun təzahürüdür. Ümumilikdə dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilib. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanıb.

Dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün digər məqsədyönlü addımlar da atılır. Özünüməşğulluq proqramı genişləndirilir, bu proqramın icrası sürətləndirilir. Xüsusi həssas təbəqələrin sosial müdafiəsi məqsədi ilə işlər görülür. Tənha yaşlılara sosial xidmətlər təşkil olunur, xüsusi əhali qrupları üçün digər dəstək tədbirləri reallaşdırılır. Aztəminatlı ailələrdən olan tələbələrin təhsil haqları ödənilir. Vətəndaşlarımıza müəyyən kommunal xidmətlərin ödənişində güzəştlər edilir.

Azərbaycan Prezidenti İlham Əliyevin "Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 2020-ci il 14 aprel tarixli Sərəncamı da xüsusi karantin rejimi dövründə vətəndaşlara sosial xidmətlərin səmərəli təşkilinə xidmət edən şəxslərə, ümumiyyətlə, sosial xidmət işçilərinin əməyinə verilən yüksək dəyərin və onlara xüsusi qayğının ifadəsidir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan dövlətinin dəstək əli yenə də öz vətəndaşlarının üzərindədir. Bu da Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır", "Azərbaycan dövləti hər zaman vətəndaşın yanındadır" fikirlərinin real əməllərə söykənməsinin daha bir bariz örnəyidir.

❖ ❖ ❖

Bu dövrdə yaşananlar Azərbaycanın ən çətin vədələrdə belə təmkinli mövqeyini, strateji baxışlarını qoruduğunu, yeni vəziyyətlərə çox tez bir zamanda və çevik şəkildə uyğunlaşmaq imkanlarını, cəmiyyəti toparlamaq gücünü ortaya qoydu. Bütün bunlar isə təbii ki, Prezident İlham Əliyevin xalqımızın Ümummilli Lideri Heydər Əliyevdən əxz etdiyi keyfiyyətlərdən, liderlik bacarıqlarından, istənilən vəziyyəti idarə etmək gücündən, problemləri imkanlara çevirə bilmək müdrikliyindən, ən əsası isə xalqın ona olan inamından irəli gəlir.

Pandemiyanın ölkəmiz üçün ən gərgin çağlarında Azərbaycanın təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi cənab İlham Əliyevin bu əzminin, bu günə və gələcəyə aydın strateji baxışının, başqalarını konkret məram və məqsədlər ətrafında bir araya gətirə bilmək qüdrətinin təzahürü idi. Bircə məqamı xatırladaq ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirdi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi dövründə dünyada təşkilatın nüfuzunun daha da artırılması, üzv ölkələr arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində səylər göstərən Azərbaycan bu addımı ilə Türk Şurasını həm də dar günün qardaşlığı formatı kimi dünyaya təqdim etdi.

Müasir siyasət və diplomatiya anlamında zirvə görüşünün əsas məqsədi pandemiyaya qarşı milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi idi.

Mənsə o toplantıdan görüntüləri izlədikcə türkün Ana Kitabı olan "Kitabi-Dədə Qorqud" dastanlarının konkret epizodları keçirdi ağlımdan. Ellərin xoş günündə də, dar günündə də uca dağ başında tonqallar qalayıb bir-biri ilə xəbərləşən, türk ellərinin sevincinə, dərdinə, qayğılarına şərik olan, kömək təklif edən, kömək istəyən, dar ayaqda göz qırpımında atını çapıb qardaş köməyinə tələsən, birgə toplantılar keçirib ümumi qərarlar qəbul edən ərənlərimiz keçirdi yaddaşımdan...

Azərbaycan dövləti, Prezident İlham Əliyev, onun təşəbbüslərinə dəstək verən digər türkdilli ölkələrin dövlət rəhbərləri bu mənəvi dəyəri, ucalığı, əxlaqı tarixin indiki çağlarına qədər gətirməyi bacarıblar.

Ululardan gələn belə dəyərlərə, hər cür diplomatiyanın, siyasətin fövqünə ucalmış bu mənəviyyata pandemiyadan sonrakı dünyamızda çox ehtiyac olacaq.

Bu mənada Prezidentimizin irəli sürdüyü "Biz birlikdə güclüyük!" çağırışı təkcə Azərbaycan cəmiyyətini deyil, həm də böyük türk dünyasını, ümumilikdə isə dünyanın xoşbəxt gələcəyi üçün çalışmağı özünə mənəvi borc bilən bütün insanları əhatə edir.

Dövlət rəhbərimiz düzgün qənaətdədir ki, bu çağırış gələcəkdə də öz aktuallığını qoruyacaq.

❖ ❖ ❖

COVID-19 həm də bir ibrət dərsidir...

Bu dərsdən hələ çox şeylər öyrənəcəyik. Düşünürəm ki, dünya bundan sonra mənəvi dəyərlərə daha çox tapınmağa başlayacaq. Zahiri parıltılardan, mənasız təmtəraqlardan bir qədər usanacaq, bəlkə... Təbiətin qayğısına qalacaq. Ola bilər ki, şəxsi gigiyena məsələlərinə bundan sonrakı həyatımızda daha ciddiyyətlə yanaşacağıq. Əllərin dezinfeksiyası da çoxları üçün gündəlik adətə çevriləcək. Əllə salamlaşmaqdan, görüşəndə qucaqlaşıb öpüşməkdən bəlkə hansımızsa çəkinəcək.



Yaxud salamlaşanda bir-birimizdən məsafə saxlayacağıq. Nə biləsən, bəlkə adətlərimiz sırasına yaponsayağı salamlaşma etiketləri də daxil oldu yavaş-yavaş. Əlbəttə, bu, dəyərli oxucularımın ovqatını yüksəltmək üçün bir yumordur.

Nəticə çıxarmağı bacarsaq, bu dərs bizə çox şeyləri qazandıracaq. Açıq etiraf edək, son onilliklərdə qloballaşan dünyamızın sel-suyuna verib yavaş-yavaş unutmaqda olduğumuz, mərhəmət, paylaşma, yardımlaşma, qarşılıqlı kömək kimi dəyərlərimizi, əslində bizi biz edən bu duyğularımızı yenidən həyatımıza daxil edəcəyik. Necə ki, pandemiya günlərinin sınaqları bu dəyərlərimizi gün işığına çıxardı.

Günlərdir sosial şəbəkələrdə böyük qürurla izləyirəm ki, dövlətin insanların rifahı üçün atdığı addımlar öz yerində, adi vətəndaşlarımız da əllərində torbalar aztəminatlı insanlara yardım daşıyırlar. Birdən kimsə bu çətin günlərdə ərzaq qıtlığı çəkər deyə, əl-ayağa düşüblər.

Bakıdan başlamış ölkənin ən ucqar rayon və kəndlərinə qədər bir çox mağazalarda üzərinə "Ehtiyacın var götür, imkanın var əlavə et" lövhəsi asılmış ərzaq rəfləri qoyulub. Şəkillərinə baxıram və müxtəlif mağazalarda çəkilmiş bu rəflərin hamısını zəruri ərzaq məhsulları ilə dolu görürəm. Deməli, imkanı olub başqaları üçün rəfə ərzaq alıb qoya bilənlərimiz, ehtiyacı olub rəfdən ərzaq götürənlərimizdən daha çoxdur, şükürlər olsun.

Və bu çoxluq həm də xeyirxahlığın hüdudlarını genişləndirir. Xeyir əməlləri bir dəyər kimi təqdim və təbliğ edir. Görən hər kəs xeyir əməl sahibi olmağın insanı da, cəmiyyəti də necə gözəl yöndən təqdim etdiyinə şahid olur və bacardığı yaxşılıqlarla bu xeyirxahlıq aynasında özünü də görmək istəyir.

Bu xeyir işdə, savab əməldə sıravi insanlardan rayon icra hakimiyyəti orqanlarının nümayəndələrinə, bələdiyyə təmsilçilərinə, iş adamından tələbəyə, cavanından yaşlıya qədər hər kəs və hamı var.

Bu, Azərbaycan Prezidentinin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın illərdən bəri öz şəxsi nümunələri ilə cəmiyyətimizdə səpdikləri xeyirxahlıq toxumunun barı, bəhrəsidir. Qoruya bilsək, həyatımızın əbədi dəyərinə çevirməyi bacarsaq, qısa müddətdən sonra dünyanın ən öndə gedən toplumlarından biri də biz olacağıq, əmin olaq buna.

❖ ❖ ❖

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva hər zaman olduğu kimi, karantin rejimi dövründə də cəmiyyətimiz üçün böyük bir dəyər yaradır. Onun insanlarımızın həyat və sağlamlığından dolayı narahat duyğularla və vətəndaşlarımıza qayğıkeş münasibətlə hər birimizə ünvanladığı müraciətlər böyük mənəvi motivasiyadır. Günlərdir ki, doğmalardan uzaq qalan, gündəlik həyat tərzindən kənar düşən, pandemiya ilə bağlı qeyri-müəyyənlikdən canı sıxılan hər kəsin qəlbini isidən, sıxıntılarını ortadan götürən ruhani gücdür.

Bu durumda Mehriban xanım dövlətimizin Ana simasıdır...

Tarixən Azərbaycan qadınının ən gözəl xüsusiyyətlərindən birinə çevrilmiş qayğıkeşliyi, narahatlığı, doğmalarının cansağlığından yana sevgi dolu əndişəni ana simasında təqdim edən Mehriban xanım bununla cəmiyyətdəki vəhdəti, həmrəyliyi daha da gücləndirir. Hər hansı anlaşılmazlıqları aradan qaldırır. Atılan bütün addımların vətəndaşların həyat və sağlamlığı üçün olduğunu qəlbinin sevgisi ilə anladır və bizi özümüzü, eləcə də başqalarını qorumağa çağırır.

Bəllidir ki, karantin rejiminə hamılıqla riayət olunması dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlərdən irəli gələn prinsipial tələbdir. Bu tələbə hamının əməl etməsindən ötrü dövlət qurumları yeri gələndə qanunun ən sərt üzünü göstərməlidirlər. Mehriban xanım Əliyevanın tutduğu mövqe, cəmiyyətə ünvanladığı mesajlar insanları daha anlayışlı olmağa, durumun ciddiyyətini düzgün dəyərləndirməyə, məsuliyyətli davranmağa sövq edir.

Onu hər hansı vəzifə öhdəlikləri, rəsmi titullar çərçivəsindən çıxararaq, hər bir Azərbaycan ailəsinin doğma üzvünə çevirmiş fəaliyyətinin ən dəqiq simvolu kimi "Sizin Mehriban" imzası ilə bitən və ilk baxışdan bu sadə müraciətlər əslində məsələyə, problemə əsl mütəfəkkir yanaşmasıdır...

Mehriban xanım bu müraciətlərində insanları dəyərlər barədə düşünməyə, həyatımızdakı sadə həqiqətləri dərk etməyə, öyrənməyə və öyrəndiklərimizə əməl etməyə çağırır: "Biz bir-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır. Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır".

Pandemiyadan sonrakı dünyaya, gələcəyə doğru yolumuzda bundan da dəyərli mənəvi bələdçi ola bilərmi?!

❖ ❖ ❖

Bir halda ki, bu mövzudan söhbət açıram, bir məqama da toxunmasam, olmaz. Azərbaycan xalqı olaraq bizim xeyirxahlıq, başqalarına təmənnasız kömək qədər nəcib əməllərə birbaşa aidiyyəti olan başqa bir dəyərimiz də var: "Sağ əlin verdiyini sol əl bilməməlidir".

Düzdür, xeyirxahlıq hansısa formada təbliğ olunmalıdır, göstərilməlidir ki, bu başqalarına da sirayət etsin, qətiyyən buna qarşı deyiləm. Amma bu məsələdə də mütləq təvazökarlığın sərhədləri gözlənilməlidir. Yoxsa bir də görürsən, kimsə tutaq ki, aşağı-yuxarı 500 manatlıq yardım edib, amma televiziyalarda, informasiya portallarında bunun reklamına çəkdiyi xərci "çötkəyə vursan", 5 min manatdan da çox edər. Balaca bir qutunun reklamı bütün saytları, televiziyaları bürüyür, buna nə hacət?!

Ya da baxırsan ki, kimlərsə bir əlində yardım torbası, o birində də kameralı telefon düşüblər küçələrin canına. Yardım verməkdən çox özlərinin reklamı, başqalarının ittihamı ilə məşğul olurlar. Əgər niyyətin yardım etməkdisə, et, Allah razı olsun! Amma daha məsələni kontekstdən çıxararaq siyasiləşdirib, bu həssas dönəmdə insanların hissləri ilə niyə oynayırsan?!

Əfsus ki, belə təsadüfi avantüristləri sonuncu parlament seçkisi vaxtı da çox gördük. Stəkanda fırtına yaratmaq üçün ucuz şoulara baş vuranlar, qışqır-bağırla, tərbiyəsizliklə yalanına həqiqət donu geyindirməyə uğursuz cəhd göstərənlər, daim avantüraları, boşboğazlıqları, bacarıqsızlıqları ilə tanınan macəraçılar həmin günlər əslində cəmiyyətimizdə mənəvi koronavirus yayıcıları idilər. Xaricdə əyləşib özünü bizdən biri sayan, yalançı "xeyirxah" obrazları ilə əslində gecə-gündüz Azərbaycanın mənafelərinə, birbaşa dövlətimizə qarşı çalışan ünsürlərin maliyyələşdirdikləri bu adamların qəsdi ölkədə gərginlik yaratmaq, insanları üz-üzə qoymaq, sağlam inkişaf meyillərini əngəlləmək idi.

Beləələri indi də ortalarda dolaşıb "xeyirxahlıq" adı ilə su bulandırmağa, qərəz bəslədikləri insanları sıradan çıxarmağa çalışırlar. Amma kimin kim olduğunu yaxşı bilən cəmiyyətimiz buna imkan verərmi heç?!

Azərbaycan insanı nələrdən keçib, nələr adladıb?!

Yaşım daha az sayılmaz. O sınaqların çoxunu özüm gündəlik həyatımda yaşamışam, İkinci Dünya müharibəsindən sonranın aclıq-qıtlıq illərini də görmüşəm, 60-cı illərin ərzaq talonlarını da, 90-cı illərin əvvəllərinin sıxıntılarını, çörək növbələrini, bir-birindən ağır məhrumiyyətlərini də, torpaqlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərimizlə bağlı üzləşdiyimiz humanitar fəlakəti də. Ona görə də geniş müqayisə imkanına malikəm. Azərbaycan cəmiyyəti o sınaqların heç biri qarşısında indiki qədər məğrur, ümidli, gələcəyə inam dolu olmayıb.

Çünki indi bütün bunlara əsas yaradan, sabaha təminat verən güclü dövləti, ən çətin şərtlər daxilində belə bu dövlətin davamlı inkişafını təmin etməyə qabil güclü Lideri var...

❖ ❖ ❖

Dünyadır, ola bilər ki, COVID-19-dan sonra tamam fərqli inkişaf səviyyəsində görünsün. Pandemiya dünyadakı iqtisadi böhranı daha da dərinləşdirsin. Bundan sonra çox şeylər əvvəlki kimi olmayacaq, etiraf edək. Qlobal dünyanın, beynəlxalq iqtisadiyyatın bir hissəsi kimi Azərbaycanda da müəyyən problemlər, onillərdir yüksələn xətt üzrə irəliləməsinə adət etdiyimiz iqtisadi inkişaf dinamikasında müəyyən səngimələr gözləniləndir. Çünki əgər dünya iqtisadiyyatı geriləyirsə, bu, Azərbaycan iqtisadiyyatına da istər-istəməz nüfuz edəcək. İqtisadiyyatımızın əsas barometrlərindən olan neftin qiyməti hələlik tənəzzüldədir və tezliklə yüksəlməsi ehtimalı da real görünmür. Azərbaycan qlobal logistika zəncirinin əsas həlqələrindəndir. Hazırda böhrandan dolayı tranzit imkanları zəifləyib və bu zəncir tam gücündə çalışmır. Karantinlə bağlı bir çox istehsal müəssisələri fəaliyyətini dayandırıb. Əlbəttə, bütün bunlar küll halında Azərbaycan iqtisadiyyatına öz mənfi təsirlərini göstərəcək. Şübhəsiz, əhalinin dolanışığında da müəyyən mənfi təsirlər yaranacaq. İqtisadi inkişafla əhalinin sosial rifahının bir-birinə necə bağlı olduğunu hətta iqtisadiyyatdan heç bir anlayışı olmayanlar da yaxşı bilirlər.

Amma bütün bunların fonunda bir məqamı xüsusi vurğulayım ki, Azərbaycan bu problemlərdən çox tez bir zamanda və daha da güclənib çıxacaq. Bu problemlərin içində Azərbaycan daha da qüdrətlənəcək.

Bizi qüdrətləndirənsə bu dəfə iqtisadiyyatımızdan da çox milli birliyimiz olacaq. Əsas budur. Milli birlik olan yerdə iqtisadiyyat da düzələndi, inkişaf da yenidən yüksələndi, əhalinin rifahı da ən yüksək səviyyəsinə çatandı. Biz bunu bacaracağıq. Çünki əsas olana nail ola bilmişik.

Vəhdətin zəfəri bizimdir. Biz son günlərin sınaqları dövründə bu vəhdəti göstərdik. Bu zəfəri qazandıq.

Elə bu sətirləri yazdığım məqamda maraqlı bir sorğunun nəticəsi ilə tanış oldum. Sosial Tədqiqatlar Mərkəzinin 2020-ci ilin birinci rübündə əhali arasında keçirdiyi sorğunun nəticələrinə görə, cənab İlham Əliyevin vətəndaşlarımız arasındakı reytinqi 94,7 faiz təşkil edir. Sorğunun nəticələrindən də göründüyü kimi, ölkə əhalisinin mütləq əksəriyyəti Prezident İlham Əliyevin fəaliyyətini, onun qlobal təşəbbüslərini, həyata keçirdiyi sosial-iqtisadi, siyasi islahatları, daxili və xarici diplomatiyasını, o cümlədən dünyanı bürüyən koronavirus pandemiyası dövründə gördüyü qabaqlayıcı tədbirləri tam dəstəkləyir.

*Bu, bizə Vəhdətin zəfərini qazandırmış Liderə olan inam və etimaddır.*

*Vəhdətin zəfəri İlham Əliyevin zəfəridir...*

*Gerisi təfərrüatdır...*

**Hüseynbala MİRƏLƏMOV,**
***Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının sədri***

# Yeni Azərbaycan Partiyasında qanvermə aksiyası keçirilib





Aprelin 21-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində qanvermə aksiyası keçirilib. Aksiyada YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının gəncləri iştirak ediblər.

YAP-ın Mətbuat xidmətinin rəhbəri, partiyanın Siyasi Şurasının üzvü Hüseyn Paşayev AZƏRTAC-a bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünə qoşularaq qanvermə aksiyası təşkil edib. Onun sözlərinə görə, hər zaman humanist, xeyirxah təşəbbüslərin müəllifi olan Mehriban xanım Əliyevanın qana ehtiyacı olan insanlar üçün belə bir çağırış etməsi də cəmiyyətimiz tərəfindən rəğbətlə qarşılanır.

H.Paşayev qeyd edib ki, YAP İcra Katibliyində təşkil olunan aksiya irsi qan xəstəliklərindən əziyyət çəkən insanlara, o cümlədən talassemiya xəstələrinə yardım məqsədi daşıyır. O, aksiyanın təşkilinin partiya üzvlərinin vətənpərvərliyindən, onların ölkəmizdə həyata keçirilən bütün xeyirxah işlərdə fəallıq göstərməkdə maraqlı olmasından xəbər verdiyini diqqətə çatdırıb.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının baş həkiminin müavini Namirə Abbasova keçirilən qanvermə aksiyasını yüksək dəyərləndirib. Onun sözlərinə görə, partiyanın hər il belə aksiyalar təşkil etməsi çox humanist addımdır. N.Abbasova deyib ki, toplanan qan talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən insanlara veriləcək. Toplanan qan laboratoriyalarda yoxlanılacaq. Yaşı 18-dən 65-dək olan sağlam insanlar qan verə bilərlər: "Burada insanlar qan verməzdən əvvəl həkim müayinəsindən keçirlər. İnfeksion xəstəliklər, o cümlədən əməliyyat keçirmiş, həmçinin şəkərli diabet, zob, ürək çatışmazlığından əziyyət çəkən insanlar qan verə bilməzlər. Qanvermənin müsbət cəhətləri də var. Belə ki, təzyiq yüksəkdirsə, qan verdikdən sonra normallaşır, qan yaradan orqanların fəaliyyəti yüksəlir. Qan vermək ürəyin də fəaliyyətinə müsbət təsir edir. Ən əsası, insanlar qan verməklə qana ehtiyacı olan vətəndaşlara yardım göstərdikləri üçün özlərini xoşbəxt hiss edirlər", - deyə N.Abbasova söyləyib.

Aksiya iştirakçılarından biri olan Amil Xankişiyev deyib: "Bugünkü aksiyada öz ailə üzvlərimlə iştirak edirəm. Belə nəcib bir təşəbbüsdə iştirak etməkdən məmnunuq. Çünki qan verməklə hər hansı bir irsi qan xəstəliyindən əziyyət çəkən vətəndaşımıza kömək edə, onun həyatını xilas edə bilərik".

Qeyd edək ki, qanvermə aksiyasında, ümumilikdə, 40-dan çox YAP üzvü iştirak edib.

# Leyla Əliyevanın təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinə dərman preparatları təqdim edilib






Aprelin 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış məhdudiyyətlər fonunda ehtiyac duyulan dərman preparatları təqdim edilib.

AZƏRTAC xəbər verir ki, təqdim olunmuş dərman preparatları "Cırtdan" adlı ailəvi meqaşoudan əldə edilən gəlir hesabına alınıb. "Biz birlikdə güclüyük!" şüarı altında təqdim edilən yardım xüsusi karantin rejiminin tətbiq olunduğu vaxtda dövlət səviyyəsində həyata keçirilən tədbirləri dəstəkləmək məqsədi daşıyır.

Son illər ərzində Azərbaycanda xəstə və yardıma ehtiyacı olanlara, xüsusilə də uşaqlara qayğı və diqqəti ilə seçilən Leyla Əliyeva tərəfindən bu insanlara ardıcıl olaraq müxtəlif şəkildə yardım və dəstək göstərilib, onun təşəbbüsü ilə "Cırtdan" meqaşoudan əldə edilən gəlirlər xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlamlığının bərpa və təmin olunmasına yönləndirilir.

Qeyd edək ki, keçən il sözügedən layihə çərçivəsində Talassemiya Mərkəzinə maliyyə yardımı, Milli Onkologiya Mərkəzinin uşaq şöbəsinə dərman preparatları, müxtəlif oyuncaq və digər hədiyyələr təqdim edilib.

Qabaqlayıcı tədbirlər səmərə verir

# Azərbaycan yoluxma zəncirini qırır

## Prezident İlham Əliyevin koronavirusla mübarizədə həyata keçirdiyi uğurlu model effektiv nəticəsini verir

Əvvəli 1-ci səh.

### Hər bir sürətli inkişaf böhrandan sonra başlayır

Əlbəttə ki, bu proseslər Azərbaycandan da yan keçməyib. Ancaq pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, səhiyyə sisteminə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm tədbirlər sayəsində artıq müsbət dinamika müşahidə olunmaqdadır. Bir çox beynəlxalq ekspertlərin açıqlamalarına diqqət yetirsək görərik ki, Azərbaycanın pandemiya ilə mübarizə modeli çox yüksək dəyərləndirilir və bəzi dövlətlərə nümunə kimi göstərilir.

Bir çox ekspert hesab edir ki, 2020-ci il dünya iqtisadiyyatı üçün itirilmiş il olacaq. Yəni dünya iqtisadiyyatı 2021-ci ildən tez artım göstərə bilməyəcək. Qlobal problem istənilən ölkənin ticarət dövriyyəsinə təsirsiz ötüşməyəcək. İstənilən halda ixracın azalması müşahidə olunacaq. Amma bu şərait həm də gələcək sürətli inkişafa nail olmaq üçün yaxşı bir sınaqdır. Hər bir sürətli inkişaf böhrandan sonra başlayır. Əsas odur ki, dövlət bu şəraitdən yaxşı nəticələr çıxarsın.

### Azərbaycan ən yaxşı nümunələrdən birini göstərdi

Bununla yanaşı, qeyd edilir ki, pandemiyadan sonrakı dövrdə dünyada müasir texnologiyalar hökmran olacaq. Hansı ölkə modern texnologiyalardan yararlanacaqsa daha sürətli inkişaf edəcək.

Amerikalı ekspert, Avropa və Amerikadakı hökumətlər, universitetlər və korporasiyaların beynəlxalq məsələlər üzrə strateji məsləhətçisi Piter Teys ölkəmizdə qlobal böhran dövründə həyata keçirilən tədbirləri dəyərləndirərək maraqlı fikirlər səsləndirib. Piter Teys hesab edir ki, Azərbaycan ictimai səhiyyə sahəsində böhranı aradan qaldırmaq və koronavirus pandemiyası fonunda fövqəladə halların fəsadlarını milli səviyyədə azaltmaqda böyük uğurlar əldə edib. Ekspert Azərbaycan hökumətinin səhiyyə və iqtisadiyyat sahəsində çox səmərəli tədbirlər gördüyünü belə izah edib: “Son üç ayda Azərbaycan pandemiyaya qarşı mübarizədə ən yaxşı nümunələrdən birini göstərdi və böhrandan çıxmaq üçün lazımi tədbirlər gördü. Ölkədə bütün xəstəxanalarda ən yaxşı heyət və tibb işçiləri çalışır. Azərbaycanda bu beynəlxalq böhranın öhdəsindən gəlməyə və onun nəticələrini azaltmağa kömək edən maliyyə sektorunda uğurlu fəaliyyət mövcuddur. İstehsal, qida sənayesi və əczaçılıq müəssisələrinə hökumət tərəfindən göstərilən dəstək sayəsində ölkədə ciddi iqtisadi azalma və işsizliyin artması müşahidə olunmur”.

P.Teysin sözlərinə görə, Azərbaycan səhiyyə sahəsində bir çox tədbirlər görüb, makroiqtisadi strategiya həyata keçirib və işsizliyin azaldılması üzrə uğurlu yol xəritəsinə başlayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti milli iqtisadiyyatın bir çox strateji sahələrinin fasiləsiz fəaliyyətini təmin edən effektiv tədbirlər həyata keçirib. Bu kontekstdə hökumət işçi qüvvəsini qorumaq və sahibkarları daha da həvəsləndirmək üçün mükəmməl qərarlar qəbul edib: “Bu qərarlar Azərbaycan xalqına böyük fayda və milli iqtisadiyyatın inkişafına öz töhfəsini verəcək. 600 min vətəndaşa göstərilən dövlət sosial yardımı 2020-ci ilin ikinci yarısında ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edəcək”.

### Hökumət iqtisadi fəaliyyətin bərpası üçün effektiv plan hazırlayacaq

Digər amerikalı ekspert Rob Sobhani isə hesab edir ki, Azərbaycan dünyada bir çox ölkə üçün koronavirusla mübarizənin ən effektiv yollarını axtaran uğurlu modeldir. Çünki çox təhlükəli pandemiyanın qarşısını almaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər aktualdır və təqdirəlayiqdir.

Amerikalı ekspert sosial təcrid tədbirlərini, təhlükəsizlik üçün ictimai yerlərin bağlanmasını və insanları evdə qalmağa çağıran peşəkar şəkildə lentə alınan videoları xüsusilə qeyd edib. “Bu tədbirlər sayəsində Azərbaycanda koronavirusdan ölənlərin sayı ümumi əhalinin çox az bir faizini təşkil edir”, - deyə amerikalı ekspert vurğulayıb.

R.Sobhani həmçinin Azərbaycanda karantində olan əhaliyə maddi yardım göstərilməsini də yüksək qiymətləndirib: “Əminəm ki, Azərbaycan rəhbərliyi karantin rejimindən tədricən çıxmaq və iqtisadi fəaliyyətin tam bərpası üçün effektiv bir plan hazırlayacaq”.

### Ukrayna Azərbaycanda həyata keçirilən tədbirlərdən istifadə edir

Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko da Azərbaycanın COVID-19 epidemiyasının yayılmasının qarşısının alınması üçün həyata keçirdiyi tədbirlərdən danışarkən vurğulayıb ki, görülən hər şey xüsusi diqqətə layiqdir. Əsas da karantin tədbirlərinin tətbiqi və orta-kiçik sahibkarlığa dəstək çox yüksək qiymətləndirilir: “Ukrayna koronavirusa qarşı mübarizədə dost və qonşuların təcrübəsini yüksək qiymətləndirir və bunun ən yaxşılarından, o cümlədən Azərbaycanda həyata keçirilən tədbirlərdən istifadə edir”.

Deputatın sözlərinə görə, digər ölkələrlə müqayisədə Ukraynada bir sıra tədbirlərin görülməsi nəticəsində vəziyyətin dəhşətli ssenari üzrə getməsinə imkan verilməyib.

Bir sözlə, koronavirusla mübarizədə Azərbaycan dövlətinin gördüyü işlər beynəlxalq ekspertlər, siyasətçilər tərəfindən də çox yüksək dəyərləndirilərək nümunəvi model kimi qiymətləndirilir.

Prezident İlham Əliyev də həyata keçirilən tədbirlərdən danışarkən vurğulayıb ki, ilk növbədə məqsəd yoluxma zəncirini qırmaq olub. Son nəticələr, yəni yoluxma, ölüm və sağalma faktları təsdiqləyir ki, görülən işlərin ilkin müsbət təzahürləri var.

Beləcə, bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, həm bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, həm də pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi Azərbaycan Prezidenti İlham Əliyevin müvəffəqiyyətlə həyata keçirdiyi düzgün siyasəti əks etdirir.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***

# Koronaviruslu günlərdə ziyafət...

## Bəşəriyyət can hayında, onlarsa...





Dünya koronavirus adlı mərəzin əsirinə çevrilib. Bir neçə aydır ki, bu bəladan çıxmaq üçün çırpınır, çarə yolları axtarır, dərman tapmağa çalışır. Hələliksə bunlara nail olunmayıb. Koronavirus sürətlə yayılaraq dünyada 2 milyondan çox insana yoluxub, 150 mindən artıq insanın həyatına son qoyub. Nə yazıq ki, bu statistika artan tendensiya ilə davam edir. Amma yayıldığı ilk zamanlarda onu ciddiyə almayan, dərhal təhlükəsizlik tədbirləri görməyən, sosial izolyasiya qaydalarını tətbiq etməyən ölkələrə qarşı daha amansız olur, yoluxma hallarını, aldığı canların sayını çoxaldır.

Bu virusun yayılması hava-damcı yolu ilə olduğu üçün onun qarşısını ala bilmək yalnız profilaktik tədbirlər görməklə, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə əməl etməklə mümkündür. Buna görə də Azərbaycanda virusun üzə çıxdığı ilk zamanlardan etibarən ciddi və təxirəsalınmaz tədbirlər həyata keçirilməyə başlanıldı. Koronavirusun geniş vüsət almasına imkan verməmək və insanların sağlamlığını qorumaq üçün həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirildi.

### Qalib gəlmək üçün vacib şərt...

Ölkə üzrə xüsusi rejimli xəstəxanalarda olan xəstələrin səhhəti, karantinə yerləşdirilən şəxslərdən götürülən test nümunələri, eləcə də karantin rejimi müddətində paytaxt və regionlarda xəstəlik fonundakı sanitar-epidemioloji vəziyyət təhlil edilib, insanların həyat və sağlamlıqlarının daha səmərəli qorunması, virusun yayılması sürətinin kəskin azaldılması məqsədi ilə Azərbaycan ərazisində tətbiq olunan karantin rejiminin uzadılması məqsədəuyğun sayıldı. Bu baxımdan xüsusi karantin rejiminin 20 aprel 2020-ci il saat 00:00-dan 4 may 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verildi. Bununla əlaqədar Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışa, yerli hava uçuşlarına tətbiq olunan məhdudiyyətlər, eləcə də bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması 4 may 2020-ci il saat 00:00-dək uzadıldı.

Bütün bu tədbirlər qlobal pandemiyanı nəzarətdə saxlamağa və yoluxmanın tempini aşağı salmağa imkan yaradır. Bununla yanaşı, xəstəliyin erkən aşkarlanması, yoluxan insanların sağaldılması, aztəminatlı, kimsəsiz və yaşı 65-dən yuxarı olan tənha insanlara yardım edilməsi və digər zəruri tədbirlər də ölkəmizdə pandemiyanın fəsadlarını xeyli azaldır.

### Fərqində olmamaq...

Amma koronavirusa qalib gəlmək və bu bəladan qurtulmaq həm də vətəndaşların sosial məsuliyyəti sayəsində mümkündür. Səbirlə, təmkinlə qoyulan qaydalara uymaq, vacib iş olmadan küçəyə çıxmamaq, evlərimizdə qalmaq isə ən vacib şərtdir, amma nə yazıq ki, bəziləri hələ də dünyanı tərsinə çevirən bu gözəgörünməz bəlanın ciddiliyinin, təhlükəsinin fərqində deyil...

Belə olmasaydı, karantin rejimi başlayandan minlərlə şəxs məsuliyyətsiz davranaraq müxtəlif yollarla qoyulan qaydaları pozmazdı. İcazəsiz küçələrdə dolaşanlar, yaxınının yas mərasimi adı ilə evdən çıxanlar, maşınının yük yerində yaxınını gizlədərək postlardan keçmək istəyənlər və daha neçə-neçə bu cür faktlar aşkarlandı. Gizli fəaliyyət göstərmək istəyən kafelər, saxta icazə sənədləri hazırlayanlar üzə çıxarıldı...

Təkcə 18-20 aprel tarixləri arasında yaxın qohumunun yas mərasimində iştirak etmək adı ilə 8103 nömrəsinə həqiqətə uyğun olmayan müraciət edən daha 169 nəfərin şəxsiyyəti müəyyən edildi və onlar inzibati qaydada cəzalandırıldı.

Qeyd edək ki, bu cür sui-istifadə hallarına yol verənlər barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə müvafiq tədbirlər görülüb və onların hər biri 100 manat məbləğində cərimə edilib.

### Kür qırağının əcəb seyrəngahı var, amma...

Ötən həftə 19 nəfərin Kür çayı sahilində karantin rejimini heçə sayaraq düzənlədikləri qonaqlıq görüntüləri isə sözün əsl mənasında hər kəsi heyrətə saldı...

Ayın 20-də isə bənzər mənzərə Qubada təkrarlandı. Rayonun 2-ci Nügədi kəndi ərazisində yerləşən Çənlibel gölü ətrafında toplaşaraq yeyib-içmək məclisi təşkil edərək karantin qaydalarını pozan 5 gənc saxlanıldı.

Koronavirusla mübarizə aparılan çətin günlərdə qeydə alınan belə qayda pozuntularının siyahısını uzatmaq da olar, amma elə həmin iki fakt da bəs edir düşünəsən ki, bu necə arxayınlıq, bu necə məsuliyyətsizlikdir? Görəsən, həmin şəxslərin ölkədə, dünyada baş verənlərdən xəbəri yoxdurmu? İnsanlığın yaşam savaşı verdiyi belə bir anda hansı sevincli, əlamətdar günü qeyd edirlər?

İnsanların sağlamlığı, həyatı ilə oynadıqlarını, virusun daha da yayılmasında vasitəçi olduqlarını düşünmürlərmi?

Bu çətin, sınaqlarla dolu zamanda kimsənin problem yaşamaması üçün dövlətimiz bütün aztəminatlı ailələrə mütəmadi yardımlar edir, onların dayağında durmağa çalışır.

Yaxşı olmazmı ki, karantin rejimini pozaraq qonaqlıqlar, ziyafətlər təşkil edənlər özlərinin, doğmalarının və digərlərinin həyatını riskə atmaqdansa, köməyə ehtiyacı olanlara yardım edərək dövlətimizə dəstək olsunlar...

Həm də müqəddəs Ramazan ayının başladığı bu günlərdə əməlisaleh bir işə imza atmış olsunlar...

### Qaydalara uyaq, uymayanları da riayət etməyə çağıraq...

Yaşana biləcək faciəvi ssenarilərin qarşısına keçmək mümkündür və bu, bizim əlimizdədir. Sosial izolyasiyaya əməl etməklə təhlükəni aradan qaldıra bilərik.

Dövlətimizin gördüyü tədbirlərin effektivliyi həm də fərdi qaydada hər bir vətəndaşın üzərinə düşən müvafiq məsuliyyəti yerinə yetirməsindən asılıdır. Bütün bunlar milli təhlükəsizlik, həmrəylik məsələsidir və vətəndaşlardan maksimal şəkildə diqqətli və məsuliyyətli olmaq tələb edir.

Tətbiq olunan qaydalara ciddi riayət etməyimiz, evdə qalmağımız özümüzün və sevdiklərimizin həyatını, ümumilikdə insanlığı xilas etmiş olacaq

Gəlin vətəndaş olaq, nəfsimizin qurbanına çevrilib, mahiyyətsiz bir əyləncə, düşünülməmiş bir addım nəticəsində insanlara qənim kəsilməyək.

Bir olaq, birlik olaq, bir-birimizə dayaq duraq, düşmənə də birgə qalib gələk...

Qaydalara uyaq, uymayanları da riayət etməyə çağıraq...

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***



# Həyata keçirilən çevik və sistemli tədbirlər bəhrəsini verir

## Ölkədə koronavirusla bağlı pozitiv statistika tendensiya halını alır

Dünya ölkələri bütün səylərini qlobal problemə çevrilmiş yeni növ koronavirus infeksiyası ilə mübarizəyə və profilaktika tədbirlərinə yönəltsə də, pandemiyanın qarşısını almaq hələ də mümkün deyil. Bu istiqamətdə Azərbaycanda həyata keçirilən mühüm qabaqlayıcı və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir.

COVID-19 virusunun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən hələ yanvar ayından zəruri qabaqlayıcı tədbirlər görülməyə başlandı. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsalı laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirildi, ölkədə 18 laboratoriyanın fəaliyyəti təmin edildi, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Respublika ərazisində bir çox 4 və 5 ulduzlu mehmanxanalar, sanatoriyalar və digər infrastruktur obyektləri karantin məqsədilə ayrıldı.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 10 modul tipli yeni xəstəxananın tikintisinə start verildi, martın sonunda istifadəyə verilmiş “Yeni klinika” müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrıldı. Eyni zamanda virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq üçün qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanıldı.

Yük daşımaları istisna olmaqla dövlət sərhədləri müvəqqəti bağlandı, Azərbaycan tərəfindən ayrılmış çarter reysləri ilə ölkəyə gətirilən vətəndaşlarımız karantin zonalarında yerləşdirildi, xaricdən xəstəliyin idxalının qarşısı alındı.

Həyata keçirilən tədbirlər nəticəsində ölkədə pandemiya vəziyyəti nəzarət altına alındı, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olundu. Vətəndaşların həyat və sağlamlıqlarının daha səmərəli qorunması, virusun yayılması sürətinin kəskin azaldılması məqsədilə Azərbaycan ərazisində tətbiq olunan karantin rejimi mayın 4-dək uzadıldı. COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

### “Siz gördüyünüz işlərə görə özünüzlə fəxr etməlisiniz”

“Hər bir ölkə səhiyyə sisteminə vaxt qazandıra bilmək üçün karantin rejiminin müddətini uzadır və “evdə qal” kampaniyasını davam etdirir. Eyni zamanda digər tədbirlər də görür”.

Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19 üzrə sözçüsü Marqaret Harris Azərbaycanda xüsusi karantin rejiminin aprelin 20-dən mayın 4-dək uzadılmasına münasibət bildirərkən deyib. ÜST rəsmisi qeyd edib ki, vacib məsələlərdən biri potensial virus daşıyıcılarının hər birini müayinədən keçirmək və onları karantinə götürməkdir: “Virus daşıyıcıları ilə təmasda olan şəxslər də karantinə götürülməli, cəmiyyətdən təcrid olunmalıdır. Əgər bunları etsəniz, ölkənizdə yoluxmanın qarşısını ala və pandemiyanı dayandıra bilərsiniz. Əlbəttə, demək asandır, tətbiq etmək çətin. Məhz buna görə bütün cəmiyyətlər virusun yayılmasının qarşısını almaq üçün birgə fəaliyyət göstərir və çətin dövrdən keçdiklərini qəbul edirlər”.

Marqaret Harris Azərbaycanda koronavirusla mübarizə istiqamətində görülən işləri təqdir edib. O, Azərbaycan xalqına koronavirusla bağlı tövsiyələrini çatdırarkən deyib: “Baxmayaraq ki, ağırdır, çətindir. Hamımız eyni dünyada yaşayırıq. Tədbirləri davam etdirin. Siz gördüyünüz işlərə görə özünüzlə fəxr etməlisiniz”.

### “Pozitiv tendensiya artıq özünü təsdiqləyib”

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov AzTV-nin efirində yayımlanan “Hədəf” verilişində deyib ki, Azərbaycanda koronavirusla bağlı iki günün rəqəmləri ölkədə pozitiv statistikanın tendensiya halını aldığını göstərir. Bu da artıq üçüncü mərhələnin başlanması deməkdir: “Birinci mərhələ fevralın 28-də ilk yoluxma faktının qeydə alınmasıdır. Fevralın 28-dən aprelin 11-dək demək olar ki, fasiləsiz neqativ tendensiya var idi, yəni yoluxma artırdı və sağalanların sayı isə az idi. Amma aprelin 12-dən etibarən pozitiv rəqəmlər də görünməyə başladı. Elə günlər oldu ki, sağalananların sayı yoluxanların sayını üstələdi. Pozitivlə neqativ bir-birini əvəzləyərək aprelin 18-dək davam elədi, yəni sabitləşdi. Artıq aprelin 19-da pozitiv tendensiya təsdiqlənib - 25 yoluxma, 122 sağalma. Demək olar ki, sağalma 5 dəfə yoluxmanı üstələyib. Aprelin 20-də isə sağalma 2 dəfə yoluxmanı üstələyib. Son günlər ard-arda sağalmanın yoluxmanı üstələməsi, həm də bu istiqamətdə fərqin getdikcə böyüməsi bizə onu deməyə əsas verir ki, pozitiv tendensiya artıq özünü təsdiqləyib və biz artıq pozitiv istiqamətdə irəliləməkdəyik”.

İ.Məmmədovun sözlərinə görə, bu həftə uzadılmış karantin rejimindən mərhələli çıxış planı hazırlanacaq. Hazırda bununla bağlı bizə iki əsas prinsip məlumdur: “Mayın 4-dən sonrakı dövrdə artıq karantindən çıxış mərhələsi başlayır. Karantindən çıxış isə mərhələli şəkildə həyata keçiriləcək. Biz artıq mayın 4-də mart ayındakı situasiyaya qayıtmayacağıq. Bu, gözlənilmir. Bu barədə artıq fikir ayrılığı yoxdur və qərar qəbul olunub. Hansı mərhələlərin daha tez yumşalmağa başlanılması və ardıcıllığı müzakirə olunur. Bu həftədən uzadılmış karantin rejimindən mərhələli çıxış planının detalları məlum olacaq və bu, qarşıdan gələn günlərdə ictimaiyyətə elan ediləcək”.

### Qəbul imtahanlarının vaxtı mayın 4-dən sonra bilinəcək

Təhsil Nazirliyi bu həftənin şənbə günündən “Mədəniyyət” kanalında yeni “Dərsdən sonra” adlı verilişin yayımına start verəcək. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov deyib ki, 40-45 dəqiqəlik proqramda məktəbdənkənar fəaliyyətlə bağlı mövzulara toxunulacaq: “Söhbət rəqsdən tutmuş rəsm, musiqi və məktəbəqədər yaşda uşaqların diqqətində olan məsələlərlə bağlı televiziya proqramının yayımından gedir. Güman edirəm ki, bu proqram məktəblilərimizin diqqətini cəlb edəcək və xoşlarına gələcək”.

Qeyd edək ki, martın 11-dən başlayaraq Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Mədəniyyət” və “ARB Günəş” telekanallarında “Dərs vaxtı” proqramının yayımına start verilib. Proqram çərçivəsində həftənin 5 günü teledərslər keçirilir. Teledərslər bütün sinifləri əhatə edir, dərs mövzularına dair qısa izah və təlimatlar təqdim olunur.

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlər üçün keçirdiyi onlayn mətbuat konfransında bildirib ki, qəbul imtahanının və sənəd qəbulunun tarixi yalnız mayın 4-dən sonra elan oluna bilər. İmtahanların vaxtı elan olunanda sənəd qəbulunun da qrafiki açıqlanacaq.

“Sənəd qəbulunu indi elan etsək, kimin kompüteri var o qeydiyyatdan keçəcək. Amma şəraiti olmayan şəxs kənarda qalacaq. Ona görə də ədalətlilik prinsipini qorumalıyıq”, - deyə M.Abbaszadə söyləyib. O qeyd edib ki, məktəblər bağlı olduğundan sənəd qəbulu komissiyaları açıq deyil. Ona görə də məktəblər açılan kimi sənəd qəbuluna başlanacaq.

DİM sədri onu da vurğulayıb ki, hazırda təxirə salınan bəzi imtahanların formatı müəyyənləşdirilir: “İmtahanların formatı üzərində işləyirik. Karantin rejimi zamanı regiondan regiona vətəndaşlar icazəsiz gedə bilməz. Evdən icazəli çıxmaq üçün səbəblərdə də imtahana getmək yoxdur. Ona görə də imtahanların formatı da karantin rejiminin qaydalarına uyğun olaraq müəyyən ediləcək. Qəbul imtahanlarının keçirildiyi formatda ola bilməsi sual altındadır. İmtahanlarımız kütləvi şəkildə həyata keçirilir. Həmin imtahanlarda kütləvilik məsələsinin həlli Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən ediləcək. Keçiriləcək imtahanlarda bir partanın arxasında bir abituriyentin oturması nəzərdə tutulur: “Halbuki əvvəl stol arxasında iki nəfər otururdu. İndi əsas məsələ sanitar gigiyenik təhlükəsizliyin təmin edilməsidir. Abituriyentlər arasında 1 metr məsafə olmalıdır. Biz bu normativləri nəzərə alacağıq”.

### “COVID-19: Azərbaycanın real zamanlı monitorinq sistemi”

AMEA-nın Coğrafiya İnstitutu günün reallığından irəli gələn və Azərbaycan üçün əhəmiyyətli olan layihə icra edib. İnstitutun direktoru, akademik Ramiz Məmmədovun rəhbərliyi ilə Geoinformatika və kartoqrafiya şöbəsinin böyük elmi işçisi Yaşar Nəsibov və Xəzərin səviyyə problemi şöbəsinin elmi işçisi Elnur Səfərov, həmçinin bu layihə çərçivəsində əməkdaşlıq edilən Türkiyənin Samsun Universitetinin əməkdaşı Fatih Ocak tərəfindən “COVID-19: Azərbaycanın real zamanlı monitorinq sistemi” işlənib hazırlanıb. Layihənin əsas məqsədi Azərbaycanda və dünyada koronavirus pandemiyasının real zamanda monitorinqinin aparılmasıdır. Tətbiqdə dünya ölkələri, eləcə də Azərbaycan üzrə pandemiya haqqında məlumatlar əks olunur və bu rəqəmlər sutka ərzində azı bir dəfə yenilənir.

### Dünya koronavirusla mübarizədə...

Məlumat üçün bildirək ki, dünyada koronavirusa yoluxanların sayı 2,5 milyon nəfərə çatır. Virus qurbanlarının sayı 170 min nəfəri ötüb. COVID-19-a yoluxmuş 645 min insan sağalıb.

Ayrı-ayrı ölkələrdə son statistikalara göz gəzdirək.

ABŞ-da koronavirusa yoluxanların sayı 782 159 nəfər təşkil edir. Cons Hopkins Universitetinin məlumatına görə, Birləşmiş Ştatlarda pandemiya qurbanlarının sayı 42 minə yaxınlaşır. Virus daşıyıcısı olmuş 72 min xəstə isə artıq sağalıb.

İspaniyada koronavirusa yoluxanların sayı 204 178 nəfərə, xəstəlikdən ölənlərin sayı isə 21 282 nəfərə çatıb, 82 514 nəfər sağalıb.

İtaliyada yeni növ koronavirusa daha 2256 yoluxma halı qeydə alınıb. Ölkə ərazisində koronavirusa yoluxanların ümumi sayı 181 228, ölənlərin ümumi sayı 24 114 nəfərə çatıb.

Fransada COVID-19 virusuna yoluxanların sayı 114657 olub. Ölkədə epidemiya başlayandan 20265 ölüm faktı qeydə alınıb.

Almaniyada koronavirus infeksiyasından ölənlərin sayı 4598-ə yüksəlib. Yoluxanların sayı daha 1 785 nəfər artaraq 143 457 olub.

İsraildə son sutkada virusa daha 229 nəfər yoluxub. Bununla da yoluxanların sayı 13 883-ə çatıb. Virusdan ölənlərin say 181-dir.

Rusiyada yoluxanların sayı 47 121 nəfərdir. Ölkədə virusdan ölənlərin sayı 456-ya yüksəlib. Koronavirusa yoluxan 3 873 nəfər sağalıb.

Ukraynada daha 415 nəfərdə koronavirus aşkarlanıb. Nəticədə yoluxma faktlarının sayı 6 125-ə çatıb. Virusdan ölənlərin sayı daha 10 nəfər artaraq 161 nəfərə yüksəlib. İndiyədək 359 nəfər koronavirusdan sağalıb.

COVID-19 infeksiyasından Türkiyədə ölənlərin ümumi sayı 2140 nəfərə çatıb. Aprelin 20-də ölkə üzrə 39703 nəfər üzərində test aparılıb. Onlardan 4674 nəfərdə infeksiya aşkarlanıb. İndiyədək testdən keçirilənlərin ümumi sayı 673980 nəfərə çatıb. Ümumilikdə 90 980 nəfər müalicəyə cəlb olunub. İndiyə qədər 13430 nəfərin müalicəsi uğurlu olub.

Qırğızıstanda koronavirusa yoluxma faktlarının sayı 590-a yüksəlib. Ölkədə indiyədək 7 nəfər COVID-19-dan dünyasını dəyişib.

Özbəkistanda indiyədək 1657 infeksiya faktı aşkarlanıb. 5 nəfər koronavirusun qurbanı olub.

Gürcüstanda yoluxanların sayı 408-ə çatıb. Onlardan 95-i sağalıb, 4-ü isə dünyasını dəyişib. Hazırda karantində 4779, stasionar nəzarətdə isə 561 nəfər saxlanılır.

Ermənistanda koronavirusa yoluxanların sayı 1401 nəfərdir. Ümumilikdə xəstəlikdən ölənlərin sayı 24 nəfərdir. 609 nəfər isə sağalıb.

Son sutka ərzində Səudiyyə Ərəbistanında koronavirusa 1122 nəfər yoluxma, 6 ölüm faktı qeydə alınıb. Beləliklə, Krallıqda indiyədək koronavirusa yoluxanların sayı 10484 nəfərə çatıb, 103 pasiyent isə həyatını itirib.

Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi son sutka ərzində 484 nəfərin koronavirusa yoluxduğu, 2 insanın öldüyü barədə məlumat yayıb. Ölkədə indiyədək COVID-19 virusuna 7625 yoluxma, 39 ölüm faktı aşkarlanıb. Küveytdə koronavirusa 1995 yoluxma, 9 ölüm faktı qeydə alınıb. Qətərdə isə indiyədək koronavirusa 6015 nəfər yoluxub, 9 insan isə həyatını itirib.

***Xəyalə MURADLI, “Azərbaycan”***




# Şəki rayonunun təsərrüfatlarında tütün əkininə başlanılıb



**Şəki rayonunun təsərrüfatlarında istixana şəraitində yetişdirilmiş tütün şitillərinin sahələrə köçürülməsinə başlanılıb. Cari mövsümdə rayonda 1065 hektarda tütün əkilməsi nəzərdə tutulur.**

İlk günlər rayonun Suçma, Cumakənd, Şorsu, Baş Göynük və Aşağı Göynük kəndlərinin ərazilərindəki təsərrüfatlarda 50 hektaradək sahəyə tütün şitili köçürülüb.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Sahib Abdulhəmidov məlumat verib.

Qurum rəsmisi bildirib ki, proqnoza əsasən, builki mövsümdə şəkili fermerlər 562 hektarda "Virciniya botaniki" növlü, 503 hektarda isə yerli tütün sortları yetişdirəcəklər.

Qeyd edək ki, ötənilki mövsümdə şəkili fermerlər 1061 hektar sahədən 3 min 642 ton quru tütün əldə ediblər. Tütünün əkini, becərilməsi və yığılması işlərinə 2 min 200-dən çox kənd sakini cəlb olunub. Ötən il tütünçülüklə məşğul olan 189 fermerə istehsal etdikləri 2 min 247 ton quru tütünə görə dövlət büdcəsinin vəsaiti hesabına 112 min 347 manat məbləğində subsidiya ödənilib.

# Naxçıvanda istehsal olunan məhsulların ixrac imkanları genişlənir

**Muxtar respublikada 2020-ci ilin "İxrac" ili elan olunması istehsal olunan məhsulların ixrac imkanlarını artırıb, iqtisadi əlaqələri genişləndirib.**



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 2020-ci ilin ötən dövründə 4 sahibkarlıq subyektinin 17 nümayəndəsi 3 beynəlxalq əhəmiyyətli tədbirdə iştirak edib. Muxtar respublikada istehsal olunan ərzaq məhsulları Rusiya Federasiyasında keçirilən "ProdExpo-2020", Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Gulfood-2020" sərgilərində nümayiş olunub.

Xarici bazarlara çıxışın təmin edilməsində Naxçıvanda fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişləndirilib. Belə ki, cari ilin ötən dövrü ərzində 4 ixrac əməliyyatı üzrə dəyəri 7 min manatdan çox ixrac təşviqi sənədi verilib.

Muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı müəssisələrdə istehsal olunan vafli məhsulları, tütün məmulatları, sement, travertin, mərmər, mebel məmulatları, mineral sular 2020-ci ilin yanvar-mart ayları ərzində 8 ölkəyə ixrac olunub, muxtar respublikada istehsal olunan məhsulların ixracı məqsədilə 35 halda mənşə sertifikatının verilməsi təmin edilib.

# Goranboyluların əli işdən soyumur



**Dünyanı cənginə almış koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması ilə bağlı dövlətimizin gördüyü təxirəsalınmaz işlər artıq öz müsbət nəticəsini verir.**

Dövlət başçısının tapşırıq və tövsiyələrinin həyata keçirilməsi nəticəsində demək olar ki, əhalinin təhlükəsizliyi təmin edilmiş, koronavirusa yoluxma faizi xeyli aşağı düşmüşdür. Nazirlər Kabineti yanında Operativ Qərargahın karantin müddətinin mayın 4-dək uzadılması ilə bağlı verdiyi qərar isə o deməkdir ki, hər zaman insanların sağlamlığını düşünən dövlət yenə də öz vətəndaşının yanındadır.

Dünyada hökm sürən pandemiya Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının əlini işdən soyutmamışdır. Belə ki, onlar müvafiq qaydalara əməl etməklə hər gün sahələrə çıxır, ölkənin ərzaq məhsullarına olan tələbatının ödənilməsində əllərindən gələni əsirgəmirlər.

Belə bir çətin dövrdə goranboylular da bol məhsulun bünövrəsini qoymaq üçün hər gün tezdən əkin sahələrinə çıxır, yorulmaq bilmədən çalışırlar. Nəticə isə sevindiricidir. Rayon icra hakimiyyətindən aldığımız məlumata görə, cari ilin əvvəlindən keçən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın baş sayı 39 min 107-yə, xırdabuynuzlu davarların sayı isə 198 min 68-ə çatdırılmışdır. Heyvandarlıq məhsullarının həcmi də xeyli artmışdır. Belə ki, cari ilin birinci rübündə ət istehsalı 74 ton artaraq 9654 tona, süd istehsalı 1295 ton artaraq 95884 tona, yumurta istehsalı isə 74 min ədəd artaraq 8 milyon 494 min ədədə çatmışdır.

Hazırda rayonda yaz-tarla işlərinin qızğın çağıdır. İqtisadi cəhətdən gəlirli olan çuğundur istehsalına bu il də böyük diqqət yetirilir. Bu məqsədlə 82 hektarda şəkər çuğundurunun səpilməsi üçün hazırlıq görülmüşdür. Daha keyfiyyətli toxum əldə edən fermerlər artıq səpini yekunlaşdırmışlar.

Goranboyda taxılçılığın inkişaf etdirilməsinə ciddi diqqət yetirilir. Bu məqsədlə keçən il ümumilikdə əvvəlki illə müqayisədə 202 hektar çox, yəni 21033 hektar payızlıq taxıl səpini aparılmışdır. Bunun da 8250 hektarı buğda, 11570 hektarı arpa, 1213 hektarı xəsil olmuşdur. Cari ilin yazlıqlarının səpinində də artım qeydə alınmışdır. 40 hektar sahədə buğda, 24 hektarda arpa, 829 hektarda qarğıdalı, 250 hektarda günəbaxan, 50 hektarda şəkər çuğunduru, 205 hektarda kartof, 540,2 hektarda tərəvəz məhsulları əkilmişdir ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur.

Goranboy rayonu da hər il bol pambıq istehsal edir. Bu ənənəni qoruyub saxlamaq əzmi ilə çalışan pambıqçılar indidən bol məhsulun bünövrəsini qoyurlar.

Rayonda pambıqçılıqla əsasən üç şirkət - "MKT İK" MMC, "Azərpambıq" MMC və "Goran-Cotton" ASC məşğul olur. Keyfiyyətli toxumun əldə olunmasından tutmuş məhsul yığımınadək olan bütün proseslər həmin şirkətlərin yaxından iştirakı ilə həyata keçirilir. Hər il minlərlə rayon sakini bu gəlirli məhsulun yetişdirilməsində və yığılmasında iştirak edərək ailələrinin dolanışığını təmin edir. Hazırda sözügedən şirkətlərin texnikaları ilə səpin işləri uğurla davam etdirilir. İndiyədək "MKT İK" MMC 1200,9 hektar sahənin 300 hektarında, "Azərpambıq" MMC 1100 hektar sahənin 350 hektarında, "Goran-Cotton" ASC isə 437,45 hektar sahənin 150 hektarında çiyid səpinini başa çatdırmışdır.

Havaların əlverişli keçməsindən istifadə edən pambıq istehsalçıları səpini optimal müddətdə yekunlaşdırmaq üçün bütün qüvvələri səfərbərliyə almışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Pambığın becərilməsində müasir texnikalardan, pivot suvarma sistemindən istifadə edilir

**Ağcabədi rayonunda çiyid səpini davam edir. Bu il rayon ərazisində 10 min 339,56 hektarda pambıq becərilməsi nəzərdə tutulur ki, onun da 684 hektarı "MKT İstehsalat Kommersiya" MMC-nin innovasiya təsərrüfatında həyata keçiriləcək.**



AZƏRTAC xəbər verir ki, innovasiya təsərrüfatında pambığın becərilməsində müasir texnika və aqreqatlardan, pivot suvarma sistemindən istifadə olunur. Əkinlərin pivot sistemi ilə suvarılması suvarma suyuna qənaət etməklə su itkisini azaldır, torpağın şoranlaşmasının qarşısını alır, eyni zamanda, yüksək məhsuldarlığın əldə edilməsinə şərait yaradır.

Bir neçə gündür ki, təsərrüfatda çiyid səpini həyata keçirilir. Əkin zamanı Türkiyənin "Bəyaz altun" pambıq sortundan istifadə olunur. Bu il, həmçinin 60 hektarda yeni növ pambıq toxumlarının təcrübə sahələrində əkilməsi, 13 hektarda damcı suvarma sisteminin qurulması nəzərdə tutulur.

# Qazaxıstan və Rusiyaya çiyələk ixrac olunur. Perspektivdə ərəb ölkələri də var



**Bir neçə gündür ki, Cəlilabadda çiyələk yığımına start verilib. Xüsusi karantin rejimi dövründə izolyasiya tədbirlərinə riayət edən təsərrüfat sahiblərinin toplanılan məhsulu yerli bazarla yanaşı, xaricə də çıxarmaq imkanları var.**

AZƏRTAC xəbər verir ki, bu il havaların əlverişli keçməsi məhsuldarlığa da müsbət təsir göstərib. Fermerlərin sözlərinə görə, əvvəllər becərilən çiyələyin dadı bəyənilmədiyindən 5-6 ildir ki, xaricdən yeni sortlar gətirərək əkirlər. Yeni sortlar bu torpaqlarda normal məhsul verir. Bu sahə gəlirli və rentabelli olduğundan istixanalarda demək olar ki, ilin bütün fəsillərində, açıq sahələrdə isə 9 ay işçi qüvvəsinə tələbat olur. Mövcud karantin rejimi ilə əlaqədar istehsalçılar məhsulun becərmə və yığım proseslərində izolyasiya qaydalarına tam riayət edirlər.

Fermer Mirismayıl Quliyev deyir ki, çiyələk şitillərini İspaniya, İtaliya və Türkiyədən gətirib. Məhsulu isə yerli bazarla yanaşı, Qazaxıstana və Rusiyaya ixrac edir. Yaxın gələcəkdə isə ərəb ölkələrinə də çiyələk göndəriləcək. Artıq bununla əlaqədar razılıqlar da alınıb. Bütün işlər həll olunandan sonra yaxın aylarda ərəb ölkələrinə də məhsul göndərilə biləcək. Digər fermer Xanlar Mirzəyev isə bildirib ki, hazırda bazarlarda çiyələk 3 manat 50 qəpik - 4 manat civarındadır. Bu da onları qane edir. Məhsuldarlıq da yaxşıdır. Keçən ilə nisbətən sahələrdə çiyələk daha çoxdur.

İntensiv texnologiya əsasında becərilən, xaricdən gətirilən sortlarda orta məhsuldarlıq 300 sentner, bəzən bir qədər də çox, yəni 40 tona qədər məhsul götürülməsinə imkan verir. Orta məhsuldarlığın bu il hədəf olaraq 200 sentner götürülməsi planlaşdırılıb.

Qeyd edək ki, rayon ərazisində fermerlər 500 hektara yaxın sahədə çiyələk əkiblər. Bu sahələrin əlavə olaraq 40-50 hektar artırılması nəzərdə tutulur.

# "Ötən il hər hektardan 54 sentner məhsul yığdıq, bu dəfə məhsuldarlığı daha da artırmağa çalışacağam"

**Cəbhə bölgəsində yerləşən Ağdam rayonunda fermer və torpaq mülkiyyətçiləri bir neçə gündür ki, çiyid səpininə başlayıblar. Ağdam pambıqçıları qısa vaxtda 1000 hektarda səpin həyata keçiriblər.**



AZƏRTAC xəbər verir ki, bu il rayonda 2600 hektarda çiyid səpilməsi nəzərdə tutulub. Səpin aparılacaq təsərrüfatların hamısında sahələr vaxtında şumlanıb, arata qoyulub, malalanaraq hazır vəziyyətə gətirilib. Rayonda fəaliyyət göstərən "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC və "P-Aqro" MMC ilə bağlanan müqavilələrə əsasən, pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin edilirlər.

Rayonda pambıq səpininə ilkin başlayan fermerlərdən biri Əhmədağalı kənd sakini Elşad Şəmmədovdur. Əvvəlki illərdə hektarın məhsuldarlığına görə yüksək nəticələr əldə edən fermer bu ili də uğurla başa vurmaq əzmindədir. "Dövlət tərəfindən pambıqçılığa göstərilən qayğıdan ruhlanaraq bir neçə ildir ki, pambıq becərirəm. Ötən il 14 hektar sahədə pambıq becərib yüksək məhsuldarlığa nail oldum. Hər hektardan orta hesabla 54 sentner məhsul topladıq. Bu il yenə 14 hektarda səpin aparmışıq. Aqrotexniki tədbirləri ardıcıl və düzgün həyata keçirərək, məhsuldarlığı daha da yüksəltməyə çalışacağam", - deyə fermer bildirib.

# Su bolluğun əsas şərtidir

## Əkin sahələrinin su təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam edir

Birləşmiş Millətlər Təşkilatının son araşdırmalarına görə, 30 ildən sonra dünya əhalisinin yarısı susuz qala bilər. Əgər bu baş versə, 2050-ci ilədək dünyada 3,5-4,4 milyard insanın içməli su çatışmazlığından əziyyət çəkmək ehtimalı var və onların 1 milyardı böyük şəhərlərdə yaşayanlar olacaq. Bu gün isə dünyada 2 milyarddan çox adam içməli su çatışmazlığı ilə üz-üzədir və ya ümumiyyətlə, içməli su ehtiyatlarından məhrumdur.



BMT-nin hesablamalarına görə, şirin su ehtiyatları ümumi su ehtiyatlarının 2,5 faizini təşkil edir və onun da istifadəyə yararlılıq dərəcəsi 0,3 faizdir. Bildirilir ki, 2010-cu ildə dünyada şirin su çatışmazlığının həcmi artaraq 225-230 milyard kubmetr olub. 2025-ci ildə isə bu rəqəmin 6-9 dəfə artaraq 1,3-2 trilyon kubmetrə çatmaq təhlükəsi var.

Arid zonada yerləşdiyindən ölkəmizdə də su ehtiyatları olduqca məhduddur. Yəni yerüstü su ehtiyatlarımız cəmi 32,2 milyard kubmetrdir. Quraqlıq illərdə bu, 22,6 milyard kubmetrə qədər azalır. Yeraltı su ehtiyatlarımız isə 5,2 milyard kubmetrdir. Onu da qeyd edək ki, Azərbaycanın yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Bu səbəbdən ölkəmizin su ilə təminatı istiqamətində mühüm layihələrin icrası dövlətin diqqət mərkəzindədir. Məqsəd əhalini içməli və əkin suyu ilə yüksək səviyyədə təmin etməkdir. Bununla yanaşı, sudan istifadə etməklə ucuz başa gələn elektrik enerjisinin əldə edilməsinə də xüsusi önəm verilir. Bunun üçün Kür və Araz çayları ilə yanaşı, regionlardakı kiçik dağ çayların imkanlarından istifadə edərək kiçik su elektrik stansiyaları tikilir. Həmin stansiyalarda həm elektrik enerjisi istehsal olunur, həm də yığılan sudan suvarma məqsədilə istifadə edilir.

Prezident İlham Əliyevin 4 mart 2020-ci il tarixli "Ağstafa rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" və "Tovuz rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamları da ölkənin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək növbəti addımlardır.

Dövlət başçısının Ağstafa rayonu ilə bağlı imzaladığı sərəncamla əhalisi 23,3 min nəfər olan 9 yaşayış məntəqəsində əkin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 subartezian quyusunun qazılması üçün 700 min, Tovuz rayonunda əhalisi 68,2 min nəfər olan 9 yaşayış məntəqəsində 18 subartezian quyusunun qazılması üçün 1,26 milyon manat vəsait ayrılıb.

Prezident İlham Əliyev fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilin yekunlarına həsr olunan konfransında ölkənin su təminatının əhəmiyyətini bir daha vurğulayaraq demişdir: "İki böyük su anbarı - Taxtakörpü və Şəmkirçay tikilib. Bunlar olmasaydı, orada yerləşən rayonlarda su qıtlığı yaranacaqdı. Əgər Taxtakörpü su anbarı tikilməsəydi, keçən il Bakı şəhərini su ilə təmin etmək mümkün olmazdı. Biz məhz Taxtakörpüdə yığılan suları Ceyranbatana ötürməklə Bakını fasiləsiz su ilə təmin etdik. Hər bir böyük layihənin arxasında düşünülmüş siyasət dayanır. Kəndlərdə su təminatını yaxşılaşdırmaq üçün bu illərdə 1500-dən çox artezian quyusu qazılmışdır və bu proses davam etdirilir. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır".

Ümumiyyətlə, əsaslı kapital qoyuluşu nəticəsində ölkənin meliorasiya təsərrüfatının maddi-texniki bazası yaxşılaşıb, minlərlə kilometr suvarma kanalları və kollektor-drenaj şəbəkələri bərpa edilib, yenidən qurulub. Bunlarla yanaşı, əhalinin içməli və suvarma suyu ilə təmin edilməsi üçün 1500-dən çox subartezian quyusu qazılaraq istifadəyə verilib. Son bir neçə ildə 4 min kilometr uzunluğunda suvarma kanallarının, 2400 kilometr uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası həyata keçirilib, 360 min hektarda torpaqların su təminatının və 256 min hektarda meliorativ vəziyyətin yaxşılaşdırılması işləri görülüb, ümumi sututumu 456 milyon kubmetr olan Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə kimi su anbarları istifadəyə verilib.

**Ən son fakt:** Prezident İlham Əliyevin 21 aprel 2020-ci il tarixli sərəncamı ilə 10 şəhər və rayonun yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi məqsədilə 17 subartezian quyusunun qazılması üçün Meliorasiya və Su Təsərrüfatı ASC-yə 1 milyon 190 min manat vəsait ayrılmışdır.

Bütün bunların hesabına ərzaq təhlükəsizliyinin təmin edilməsi və ixracda kənd təsərrüfatı məhsullarının çəkisinin artırılması üçün yeni əkin sahələri dövriyyəyə daxil edilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "Sizin iradənizə, müdrikliyinizə və fenomen rəhbərlik istedadınıza arxalanırıq"

Ölkəmizin hər yerindən vətəndaşlar Prezident İlham Əliyevə məktub ünvanlayaraq həyata keçirilən tədbirləri yüksək qiymətləndirir, dövlət başçısına dərin təşəkkürlərini ifadə edirlər. Belə məktublardan biri də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi tərəfindən ünvanlanıb. Məktubda yazılır:

*"Möhtərəm Prezident.*

*Sizin rəhbərliyiniz və qeyri-adi təşkilatçılıq bacarığınız sayəsində respublikamız ildən-ilə dünyanın əksər ölkələrinə nümunə ola biləcək iqtisadi, sosial uğurlara imza atır.*

*Siz populizmdən uzaq, gələcəyə hesablanmış iqtisadi, sosial proqramların müəllifi kimi tanınan dövlət başçısısınız. 2018-ci il prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışınızda inkişafımızın və islahatların gələcək konturlarını açıq-aydın göstərdiniz. Ötən dövrdə bu islahatların ardıcıllıqla həyata keçirilməsinin şahidi olduq. Sizin iradənizə, müdrikliyinizə və fenomen rəhbərlik istedadınıza arxalanaraq inanırıq ki, ölkəmiz pandemiyanın yaratdığı bu çətin vəziyyətdən də şərəflə çıxacaq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcəkdir.*

*Möhtərəm cənab Prezident, Sizin uğurlarınızı şərtləndirən amillərdən biri də hadisələri öncədən görmək və vaxtında qabaqlayıcı tədbirlər həyata keçirmək bacarığınızdır. Sizin tapşırığınızla görülən çevik, təcili tədbirlər koronavirus bəlasının Azərbaycanda geniş yayılmasına imkan vermədi.*

*Həmkarlar ittifaqları olaraq bizim əsas məqsədlərimiz ilə uzlaşan qərarlarınız ölkə vətəndaşları ilə yanaşı, həmkarlar ittifaqı üzvlərimizin də sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yaxşılaşdırılmasına təkan vermişdir. Belə ki, koronavirusla mübarizənin ilk anlarından verdiyiniz qərarlar tərəfimizdən rəğbətlə qarşılanmışdır. Bu gün Siz də qeyd etdiyiniz kimi, pandemiyadan ən çox zərərçəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənilməsi, 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi, ümumilikdə 600 minə yaxın insanın dövlətdən maddi dəstək alması dövlətimizin və onun Prezidentinin hər zaman xalqın yanında olması deməkdir.*

*İlkin mərhələdə 200 min insanın dövlətdən 190 manat yardım alacağı planlaşdırılmışdı. Sizin tapşırığınıza uyğun olaraq bu rəqəm 600 minə qaldırıldı. Burada da Sizin məqsədiniz insanların sosial müdafiəsini gücləndirmək olmuşdur.*

*Möhtərəm cənab Prezident, koronavirusla mübarizə ilə bağlı karantin rejiminin tətbiq olunması sözsüz ki, iqtisadiyyatın bir çox sahələrinin iş fəaliyyətinə öz təsirini göstərmişdir. Burada yaşana biləcək bütün problemləri nəzərə alaraq, Siz qəti şəkildə sahibkarlara işçilərin işdən azad olunmaması, əməkhaqlarının saxlanılması, ixtisarlara yol verilməməsi barədə göstərişlər verdiniz. Bu isə həmkarlar ittifaqlarının, onun siravi üzvlərinin ürəyindən irəli gələn tapşırıqlar idi.*

*90 min ödənişli ictimai iş yerinin yaradılması ilə bağlı göstərişiniz, dövlət sektorunda çalışan 900 min nəfərdən artıq işçinin, qeyri-neft sektoru üzrə 690 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğunun təmin edilməsi, elektrik enerjisinin aylıq istehlak həcminin iki ay müddətinə artırılması, aztəminatlı ailələrdən olan 17 min tələbənin təhsil haqqı xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi, koronavirusla bağlı bir çox məhbusun əfv edilməsi, sahibkarlara vergi güzəştlərinin nəzərdə tutulması, maliyyə dəstəyinin göstərilməsi, hər bir vətəndaşın mənafeyinə cavab verən düşünülmüş, vaxtında atılmış qətiyyətli addımlardır. Bu addımlar hər bir həmkarlar ittifaqı üzvləri tərəfindən rəğbətlə və minnətdarlıqla qarşılanır. Çətin günlərdə hər zaman xalqın yanında olan dövlətimizə və Sizə, möhtərəm Prezident, üzvlərimizin təşəkkürlərini və minnətdarlıqlarını çatdırırıq.*

*Möhtərəm cənab Prezident, işləyən əhalinin nümayəndəsi, təmsilçisi, 1,5 milyondan çox üzvü olan həmkarlar ittifaqları Sizin xalqımızın sağlamlığı və rifahı naminə atdığınız bütün addımları yüksək qiymətləndirir, hər zaman yanınızda olduğunu bəyan edir".*

# İcbari Sığorta Bürosu "Daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası haqqında nə bilirik? Maariflənək, maarifləndirək" mövzusunda keçirdiyi müsabiqəyə yekun vurdu

İcbari Sığorta Bürosunun kütləvi informasiya vasitələrinin nümayəndələri arasında elan etdiyi "Daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası haqqında nə bilirik? Maariflənək, maarifləndirək" mövzusunda 06 mart - 10 aprel 2020-ci il tarixlərdə keçirilən məqalə müsabiqəsi başa çatmış, qaliblər müəyyən olunmuşdur.

Daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası barədə əhalinin media vasitəsilə maarifləndirilməsi məqsədi daşıyan müsabiqəyə paytaxt Bakı ilə yanaşı, regional media orqanları da daxil olmaqla, ümumilikdə 18 məqalə təqdim olunmuşdur.

Müsabiqə qaydalarında təsbit olunmuş meyarlar əsasında aparılmış qiymətləndirmənin nəticələrinə görə:

- "ARB 24" Televiziyasının redaktoru Məmməd Ağayevin - "Daşınmaz əmlak sığortasında bilinən və bilinməyən gerçəklər" məqaləsi birinci yerə;
- "Report İnformasiya Agentliyi"nin baş redaktorunun müavini İlahə Məmmədlinin "Azərbaycanda daşınmaz əmlakın sığortalanması "ikinci bahar"ını yaşayır" məqaləsi ikinci yerə;
- "ASAN Radio"nun redaktoru və aparıcısı Ruslan Zeynalın "Daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası haqqında nə bilirik? Maarifl ənək, maarifləndirək" məqaləsi üçüncü yerə layiq görülmüşdür.

Qaliblərə müsabiqə qaydalarında qeyd olunan pul mükafatları və sertifikatlar təqdim olunacaq.

# Pandemiyadan zərərçəkmiş sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilir

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən, aprelin 20-nə İqtisadiyyat Nazirliyinə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus (COVID-19) pandemiyasından zərərçəkmiş 18 min 260 vergiödəyicisi və maliyyə dəstəyi almaq üçün 48 min 659 fərdi (mikro) sahibkar, cəmi 66 min 919 vergiödəyicisi müraciət edib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi çərçivəsində 151 min 198 işçini əhatə edən 15 min 385 sahibkarın müraciəti araşdırılaraq təsdiqlənib və ayrılacaq maliyyə vəsaitinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Digər vergiödəyiciləri üzrə araşdırmalar davam edir. İndiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 68,05 milyon manat, o cümlədən birinci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 34,02 milyon manat təşkil edir. Aprelin 20-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 13 min 722 vergiödəyicisinə 138 min 422 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 31,4 milyon manat vəsaitin köçürülməsi təmin olunub.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 48 min 659 vergiödəyicisindən müraciət daxil olub, 45 min 2 müraciət araşdırılaraq təsdiqlənib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim olunub. Təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 32,6 milyon manat təşkil edir. Aprelin 20-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən artıq 26,71 milyon manat vəsaitin 35 min 223 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin edilib.

Qeyd edək ki, maliyyə dəstəyi proqramı çərçivəsində müraciətlərin nəticəsi və vəsaitin bank hesabına köçürülməsi barədə bildiriş vergiödəyicilərinin İnternet Vergi İdarəsindəki (www.e-taxes.gov.az) elektron kabinetlərinə və SMS şəklində mobil telefonlarına göndərilir. Yaranan suallarla bağlı vergiödəyiciləri Dövlət Vergi Xidmətinin "195" Çağrı mərkəzinə və uçotda olduqları yerli vergi orqanlarına müraciət edə bilərlər. Pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara və iqtisadi artıma dövlət dəstəyi mexanizmləri barədə qanunvericilik aktları, qərarlar, videotəlimatlar, ən çox verilən suallar və onların cavabları, maliyyə dəstəyi almış vergi ödəyicilərinin mütəmadi olaraq yenilənən siyahısı, eləcə də digər faydalı məlumatlarla aşağıdakı linklərdən istifadə etməklə tanış ola bilərsiniz.

Ətraflı:

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi: https://bit.ly/3ecjpJq

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti: https://bit.ly/34CBkEw

# Azərbaycan koronavirusla mübarizədə aciz deyil, çünki İlham Əliyev kimi Prezidenti var!

Koronavirus pandemiyası sağlamlıqla yanaşı, sosial-iqtisadi sahədə yaratdığı təzadları ilə də tarixə düşdü. Dünyanı iflic vəziyyətinə salan bu bəla insanların yaşam tərzinə, sosial durumuna özünün mənfi təsiri ilə yadda qalacaq.

Pandemiyanın iqtisadiyyata təsiri nəticəsində bir çox istehsal və xidmət sahələri fəaliyyətini dayandırmağa məcbur oldu. Bu da dünyada qısa bir zaman kəsiyində işsizlərin sayının rekord həddə artması ilə nəticələndi. Təkcə ABŞ-da 20 milyondan çox insan işsizliyə görə yardım almaq üçün dövlətə müraciət edib. Dünyada da onların sayı on milyonlarladır.

İqtisadiyyata mənfi təsir göstərən pandemiya sayəsində dünya yeni böhrana qədəm qoydu. Beynəlxalq maliyyə qurumları bu böhranın dağıdıcı təsirlərinin 2008-2009-cu illərin böhranından da ağır olacağını bildirirlər. Bir sözlə, pandemiya insanların sosial durumuna mənfi təsir edəcək. Elmin imkanları ilə istehsal edilən dərman və peyvəndlər vasitəsilə bu xəstəliyi qısa müddətdə sağaltmaq mümkün olacaq. Onun yaratdığı sosial-iqtisadi təzadları aradan qaldırmaq isə xeyli vaxt aparacaq.

Azərbaycan qloballaşan dünyanın bir parçası olduğu üçün koronavirusun yaratdığı mənfi təsirdən kənarda qala bilməz. Prezident İlham Əliyevin apardığı siyasətin əsas məqsədi bu çətin dövrdə Azərbaycan vətəndaşının sağlamlığının və sosial müdafiəsinin ön plana çıxarılmasıdır. Dövlət başçısı bütün çıxışlarında vurğulayır ki, əhalinin sağlamlığı və sosial müdafiəsi onun üçün hər şeydən üstündür.

Prezidentimiz sadəcə vəd vermir. Gördüyü konkret işlərlə ölkə əhalisinin mənafeyinin onun üçün hər şeydən üstün olduğunu sübut edir. Aprelin 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi naziri və İqtisadiyyat naziri ilə videobağlantı formatında keçirdiyi iclasda dövlət başçısı əhalinin sosial müdafiəsinin xüsusi əhəmiyyət daşıdığını demişdir: "Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür".

Prezident tərəfindən dövlətdən yardım alacaq insanların sayının 200 mindən 600 minə çatdırılması onu göstərir ki, bu imkandan daha çox vətəndaş faydalanacaq. Beləliklə, 600 min insan iki ay ərzində hər ay dövlətdən 190 manat pul alacaq.

Lakin əhalinin sosial müdafiəsi bununla bitmir. Dövlət yeni iş yerləri açmaqla əhalinin sosial müdafiəsinə üstünlük verir. Bu məqsədlə ödənişli ictimai iş yerlərinin sayı artırılır. Mövcud 30-40 min ətrafındakı ödənişli iş yerlərinin sayının 90 minə çatdırılması planlaşdırılır. Məqsəd bu yolla işsizliyin səviyyəsini aşağı salmaqla əhalinin sosial müdafiəsini gücləndirməkdir.

Digər bir yol isə insanların özünüməşğulluq proqramı çərçivəsində işlə təmin olunmasıdır. Cari ildə bu proqram vasitəsilə 12 min insan dövlət dəstəyindən istifadə edərək özü üçün iş yeri yaradacaq və dolanışığını təmin edəcək.

Prezident İlham Əliyev indiki çətin dövrdə ziyan çəkən vətəndaşların dövlət qayğısından faydalandığını bildirərək demişdir: "Mən indi Azərbaycanı heç kimlə müqayisə eləmək istəmirəm, amma baxın görün, bu pandemiyadan zərər çəkmiş sahələrdə işləyənlərin əməkhaqqı dövlət tərəfindən ödənilir, 300 min adamdır, az deyil. Mikrosahibkarların da sayı 300 minə yaxındır, onlara da dövlət tərəfindən vəsait ödənilir".

Dövlət başçısı tərəfindən atılan addımları əhali rəğbətlə qarşılayır. Bu gün Azərbaycan vətəndaşı pandemiyanın yaratdığı sosial problemlərin həllində aciz qalmayıb. Çünki onun qeydinə qalan, onu düşünən, ona dayaq olan, xalqını sevən Prezidenti var!

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanda yeni koronavirus infeksiyasına daha 44 yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 44 yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, şəkərli diabet, hipotireoz və xronik böyrək xəstəliyi olan 1963-cü il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1480 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 865 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 595 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 14 nəfərin vəziyyəti ağır, 20 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 102.764 test aparılıb.

# Aprel ayı üzrə müavinət, təqaüd və kompensasiyaların ödənişi başa çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən aprel ayı üzrə bütün müavinət, təqaüd və kompensasiyaların ödənişi başa çatdırılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, aprelin 20-də Bakının Səbail, Yasamal, Binəqədi, Nəsimi, Qaradağ rayonları, eləcə də Abşeron rayonu və respublikanın digər şəhər və rayonları üzrə 553818 nəfərə, aprelin 21-də isə paytaxtın Nizami, Nərimanov, Xətai, Xəzər, Pirallahı, Sabunçu və Suraxanı rayonları üzrə 162682 nəfərə müavinət, təqaüd və kompensasiya ödənilib.

Beləliklə, 716 min 500 nəfərə qeyd edilən sosial təminat növləri üzrə ödənişlər edilib.

Xatırladaq ki, aprel ayının bütün pensiya ödənişləri də bu ayın 8-15-də həyata keçirilib.

# Bu ay tənha yaşayan yaşlılara və əlilliyi olan şəxslərə 25 mindən çox ərzaq payı verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən evlərində sosial xidmətlə təmin olunan 15 mindən çox tənha yaşlıya və tənha əlilliyi olan şəxsə sosial tərəfdaşlar tərəfindən ərzaq yardımları davam edir. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu ay həmin kateqoriyadan olan vətəndaşlara Bakıda və bölgələrdə, ümumilikdə 25 mindən çox ərzaq payı verilib.

Ərzaq yardımları sosial xidmətçilər və könüllülərlə birgə onların evlərinə aparılıb təqdim edilib. Sosial tərəfdaşlar tərəfindən davamlı olaraq həyata keçirilən həmin sosial aksiyalar həssas qruplardan olan vətəndaşların rifahına dəstək olmaqla, yaşlı nəslə diqqət və qayğı ilə yanaşılması, xeyirxahlıq kimi milli-mənəvi dəyərlərə sadiqliyi ifadə edir.

Aprelin sonuna kimi daha 30 mindən çox ərzaq payının verilməsi nəzərdə tutulub.

# RAGB dünyanın bütün tibb işçilərinə minnətdarlıq edir

Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) könüllülər bölməsi dünyanın bütün tibb işçilərinə minnətdarlıq əlaməti olaraq videoçarx çəkib.

"Əziz həkimlərimiz, sizin əməyiniz çox dəyərlidir! Çox sağ olun!". AZƏRTAC xəbər verir ki, RAGB-nin üzvləri bu çətin dövrdə insanların həyatı və sağlamlığı üçün mübarizə aparan bütün tibb işçilərinə belə müraciət edirlər. "Ətrafda virusun tüğyan etdiyi bir vaxtda, dünyada elə cəsarətli və alicənab insanlar var ki, onlar digərlərinə görə öz həyat və sağlamlıqlarını riskə ataraq, bütün vaxtlarını xəstəxana postunda keçirirlər. Həkimlər, tibb bacıları və bütün tibbi heyət - dövrümüzün qəhrəmanlarıdır. Bütün "sağ ol"ları məhz onlara ünvanlamaq , dünyanın bütün alqışlarını onlara həsr etmək istəyirsən. Buna baxmayaraq, onlar öz postlarını tərk etmir, virusla müharibədə ön mövqedədirlər. Onlar xəstələri ağır vəziyyətdə buraxmır və bu xəstələri xilas etməkdən ötrü əllərindən gələn hər şeyi edirlər. RAGB-nin könüllülər bölməsi bu kiçik videoçarxı dünyanın bütün tibb işçilərinə minnətdarlıq əlaməti olaraq hazırlayıb", - deyə təşkilatın sosial şəbəkələrdəki səhifələrində yerləşdirilən videoposta olan şərhdə bildirilir.




# Azərbaycanda "İmmunlaşdırma həftəsi" keçirilir

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "İmmunlaşdırma həftəsi" aprelin 26-dək davam edəcək.

Qeyd edək ki, aprelin 9-da Səhiyyə naziri Oqtay Şirəliyev "Respublikada "İmmunlaşdırma həftəsi"nin keçirilməsi barədə" əmr imzalayıb. Əmr Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən "İmmunlaşdırma həftəsi"nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədini daşıyır.

Əmrdə 2020-ci il aprelin 20-dən 26-dək respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi"nin təşkili Səhiyyə Nazirliyin tibbi idarə və müəssisələrinin rəhbərlərinə tapşırılıb.

Əmrdə həmçinin hər hansı səbəbə görə immunlaşdırmadan kənarda qalan uşaqların "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərə cəlb edilməsi, COVID-19 infeksiyasına görə epidemioloji vəziyyəti nəzərə alaraq uşaqların tibb müəssisələrinə kütləvi axınının qarşısının alınması məqsədilə onların peyvəndlərə növbəli dəvət olunması, ÜST-ün dəstəyi ilə həftə ərzində peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə respublikanın rayonlarında monitorinqin keçirilməsi, əhalinin bu barədə maarifləndirilməsinin təminatı kimi mühüm məsələlər də öz əksini tapıb.

# Şəhid və aztəminatlı ailələrə ərzaq yardımı göstərilib











Bu gün dünyada qlobal problemə çevrilmiş koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sistemli tədbirlər həyata keçirilir.

Hazırda koronavirus infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə xüsusi karantin rejimi tətbiq edilib. Təbiidir ki, bu rejimin tətbiq edilməsi eyni zamanda əhalinin həssas təbəqəsindən olan insanların sosial durumuna da təsirsiz ötüşmür.

Yaranmış bu cür müvəqqəti çətinliklərin aradan qaldırılması məqsədilə bir sıra dövlət qurumları, müxtəlif təşkilatlar, həmçinin milli birlik nümayiş etdirən vətəndaşlarımız koronavirusa qarşı mübarizə çərçivəsində görülən işlərə fəal şəkildə qoşularaq aztəminatlı ailələrə müntəzəm olaraq hər cür yardım və dəstək göstərirlər.

Mənəvi Dəyərlərin Təbliği Fondu da yaranmış vəziyyətlə əlaqədar yardım kampaniyasına qoşulub. Belə ki, fond tərəfindən əhalinin həssas təbəqəsinə dəstək göstərmək, onların sosial müdafiəsini gücləndirmək məqsədilə ümumilikdə 170 şəhid və aztəminatlı ailələrə ərzaq yardımı göstərilib.

Qeyd edək ki, Mənəvi Dəyərlərin Təbliği Fondu mütəmadi olaraq hər il Ramazan və Qurban bayramlarında, eləcə də digər günlərdə şəhid ailələrinə, müharibə veteranlarına və aztəminatlı ailələrə ərzaq yardımı edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dərman vasitələrini qəbul etməzdən əvvəl həkimlə məsləhətləşmək vacibdir

Son zamanlar mövcud vəziyyətlə əlaqədar bir çox saytda koronavirusun (COVID-19) müalicəsində müxtəlif dərman vasitələrinin effektivliyi, həmin dərman vasitələrinin virusun yaratdığı vəziyyətin aradan qaldırılmasında müsbət təsirləri gündəmə gətirilir və istifadəsi tövsiyə olunur.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumiyyətlə, hər hansı bir dərman vasitəsinin qəbulu həkim nəzarəti altında olmalıdır. Çünki dərmanların səhv və nizamsız qəbulu müalicə effektinə mənfi təsir edə və insana xeyirdən çox zərər verə bilər. Yadda saxlamaq lazımdır ki, dərmanlardan qeyri-rasional istifadə halları orqanizmdə bir çox fəsadın yaranmasına və orqanizmin zəifləməsinə səbəb olur. Bundan başqa, özünümüalicə halları çox zaman ağır nəticələr verir, rezistentlik, allergiya, əlavə təsirlər və s. kimi bir sıra fəsadlara yol açır.

İnsanın sağlamlığı öz əlindədir və bu həssas dönəmdə vətəndaşları dərman qəbulunda daha diqqətli olmağa çağırırıq. Nəzərə alın ki, internet resurslarında yerləşdirilmiş qeyri-rəsmi və qeyri-peşəkar məlumatlar həqiqətə uyğun olmaya və bu məlumatlara kor-koranə inanmaq sağlamlığınıza ciddi zərər vura bilər. Ona görə də hər hansı bir dərman vasitəsinin qəbulu və istifadəsindən əvvəl həkim məsləhəti mütləqdir.

# 33 min 334 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb olunub

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar aprelin 20-si saat 00:00-dan aprelin 21-si saat 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayıb. İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə aprelin 20-si saat 00:00-dan aprelin 21-i saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1818 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə aprelin 1-dən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 33 min 334 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

# Rektor Elmar Qasımov tələbələrlə onlayn görüş keçirdi

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov ali məktəbin V kurs tələbələri ilə onlayn görüş keçirib. "Microsoft Teams" platforması üzərindən təşkil olunan görüşdə 100-dən çox tələbə iştirak edib.



BANM-ın Mətbuat xidmətindən verilən məlumata görə görüşün əsas məqsədi ali məktəbdə təlim-tədris prosesi və tələbələrin qarşısına çıxan çətinliklərin birgə həlli yollarını müzakirə etməkdən ibarət olub.

Görüş zamanı rektor tələbələrin final imtahanları, "Məzun Günü", istehsalat təcrübəsi, karyera imkanları və digər vacib məsələlərə dair suallarını cavablandırıb.

Tələbələrlə distant dərslərin effektivliyi də geniş müzakirə olunub.

Rektor Elmar Qasımov bildirib ki, ölkəmizdə ilk dəfə geniş formada tətbiq olunan distant təhsil Bakı Ali Neft Məktəbinin akademik heyəti və tələbələri üçün də uğurlu təcrübə olub. O qeyd edib ki, tətbiq edilən müasir kommunikasiya metodları fonunda qlobal səviyyədə geniş miqyas alan koronavirus (COVID-19) pandemiyasının təhsil sektoruna mənfi təsirləri minimallaşdırılıb. Bunun nəticəsidir ki, Bakı Ali Neft Məktəbi də tədris prosesini vaxtında yekunlaşdırmağa və imtahanları onlayn qaydada uğurla təşkil etməyə nail olub.

Tələbələr də öz növbəsində onlayn tədris sisteminə vaxtında keçidin faydalı olduğunu diqqətə çatdırıblar.

Sonda tələbələrin hər birinin ayrı-ayrılıqda sualları cavablandırılıb. Qaldırılan məsələlərin həlli ilə bağlı müvafiq kafedra və şöbələrə tapşırıqlar verilib.

# "Azercell" "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nin təşkilinə dəstək verib

Ölkənin lider mobil operatoru "Azercell" koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərə töhfə verməkdə davam edir. Şirkət bu dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi və Daxili İşlər Nazirliyinin birgə ərsəyə gətirdiyi "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" çərçivəsində vətəndaşların sorğularının operativ cavablandırmasına dəstək olub.

Müştərilərinin rahatlığını hər zaman prioritet hesab edən "Azercell" qısa müddət ərzində abunəçiləri üçün SMS icazə sistemini aktiv edib. Beləliklə, "Azercell" abunəçiləri 8103 nömrəsi vasitəsilə bu xidmətdən ödənişsiz yararlana bilirlər. Xatırladaq ki, tətbiq edilən sosial izolyasiya tədbirlərilə əlaqədar vətəndaşlar yaşayış yerlərini tərk etmək üçün 8103 nömrəsinə icazənin məqsədini bildirən xüsusi kodu, şəxsiyyət vəsiqələrinin seriya və nömrəsini göndərməlidirlər.

SMS icazə sisteminin istifadəyə verildiyi ilk günlərin həm vətəndaşlar, həm də Elektron Hökumətin İnkişafı Mərkəzi üçün ən gərgin zaman olduğunu nəzərə alaraq, "Azercell"in Telefon Mərkəzi xüsusi iş rejimində çalışıb. "Azercell" "ASAN xidmət"in müvafiq sisteminə (9108) dəstək göstərərək SMS icazə sistemindən istifadə qaydaları ilə əlaqədar daxil olan zəngləri və sualları operativ şəkildə cavablandırıb. Həmçinin xidmətdən istifadə zamanı yarana biləcək sualları öncədən cavablandırmaq məqsədilə "Azercell" şirkəti tərəfindən xüsusi informativ video təlimatlar hazırlanaraq rəsmi sosial media hesablarında paylaşılıb.

Bundan əlavə, "Azercell" Elektron Hökumətin İnkişafı Mərkəzinə Mi-fi cihazları, limitsiz internet paketləri və limitsiz danışıq üçün xüsusi nömrələr hədiyyə etməklə, qurumu kəsintisiz rabitə xidmətləri ilə təmin edib.

Qeyd edək ki, qlobal pandemiya dövrü ərzində "Azercell" ölkədə yeni koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, eləcə də iqtisadi sabitliyin qorunması və əhalinin sosial rifahının yüksəldilməsi üçün hökumət tərəfindən görülən tədbirlərə dəstək məqsədilə bir sıra layihələr həyata keçirib, müxtəlif sosial təşəbbüslərə imza atıb.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## Müxtəlif növ taxta materiallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 05 may 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Ağstafaçay Hidroqovşağı İstismarı İdarəsi ilə "Ruzi" MMC arasında 07.02.2020-ci il tarixli 01/1 və 01/2 nömrəli tender müqavilələri hər iki tərəfin razılığı əsasında ləğv edilmişdir. Bu barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə məlumat verilmişdir.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## Akkumulyatorların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 01 may 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 12.02.2020-ci il tarixdə elan edilmiş İstismar işləri üçün tələb olunan materialların satın alınması prosedurunun qalibi "Aztelmaş" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və " Aztelmaş" MMC arasında 155 303,34 (bir yüz əlli beş min üç yüz üç manat 34 qəpik) manat məbləğində 20.04.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

Təkrar

## Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması respublikanın 34 şəhər və rayonunda (Ağcabədi, Ağdaş, Ağsu, Astara, Bərdə, Beyləqan, Biləsuvar, Cəlilabad, Goranboy, Göygöl, Hacıqabul, İsmayıllı, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Siyəzən, Şabran, Şamaxı, Şirvan, Şəmkir, Tərtər, Tovuz, Ucar, Xaçmaz, Yardımlı, Yevlax, Zaqatala, Qax, Qazax, Qobustan, Qusar) cəmi 500 ədəd olmaqla fərdi evlərin tikintisi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (012) 596-44-09 ünvanından ala bilərlər.

**İştirak haqqı: 2500 (iki min beş yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **12 may 2020-ci il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə 21 may 2020-ci il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 may 2020-ci il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına
## *açıq tender elan edir*

"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə qaynaq aqreqatlarının satın alınması

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 may 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **02 iyun 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **03 iyun 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Azərbaycan Ordusunda ZTR ekipajlarının döyüş hazırlığı yüksəldilir



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq zirehli transportyorlar (ZTR) və digər təkərli döyüş maşınlarının ekipajlarının döyüş hazırlığı yüksəldilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumqoşun poliqonlarının təlim nöqtələrində ZTR ekipajlarından ibarət şəxsi heyət atış hazırlığı üzrə normativləri yerinə yetirirlər.

Təlim məşqlərinin əsas məqsədi şəxsi heyətin döyüş hazırlığının artırılması, döyüş maşınlarının çətin keçilən ərazilərdə idarə edilməsi və real döyüş şəraitində tətbiqi üzrə vərdişlərin təkmilləşdirilməsidir.

## Göyçay Rayon Mərkəzi Xəstəxanasının Publik Hüquqi Şəxsi 2020-ci il ərzində aşağıda adları göstərilən malların (iş və xidmətlərin) satın alınması məqsədilə kotirovka sorğusu elan edir

1. Dəftərxana ləvazimatları
2. Təsərrüfat malları
3. Mətbəə xərci

Maraqlananlar Göyçay rayonu, Nizami küçəsi,183 ünvanına müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Tahir Əzizov

Əlaqə telefonu: 050-675-29-54

***Tender komissiyası***

# Silah və hərbi texnikanın yay istismar rejiminə keçirilməsi prosesi aparılır

Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində 2020-ci ilin döyüş hazırlığı planına əsasən silah, döyüş və xüsusi texnika yay mövsümündə istismar rejiminə keçirilir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş və xüsusi texnikanın yanacaq-sürtkü materialları hərbi hissələrdəki texniki xidmət məntəqələrində dəyişdirilir və onlara planlı şəkildə mövsümi qulluq göstərilir.

Silah, döyüş və xüsusi texnikanın yay mövsümündə istismar rejiminə keçirilmənin məqsədi hərbi hissələrin döyüş qabiliyyətinin artırılması, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılmasını təmin etməkdir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7375
Sifariş 931
Qiyməti 40 qəpik